Xalqın qəzeti!

# Xalq qəzeti

№ 119 (30235) 7 iyun 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Kənd təsərrüfatının sürətli inkişafına böyük dövlət dəstəyi göstərilir, texnika alınır, suvarma işləri aparılır, güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar verilir, o cümlədən, pambıqçılığın inkişafı, sənaye müəssisələrinin yaradılması üçün dövlət öz dəstəyini göstərir.**

## Aqrar sahəyə dövlət dəstəyi davamlıdır

***Prezident İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binasının açılışında iştirak edib***



**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binası istifadəyə verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Son illərdə paytaxtda modern üslubda tikilən binalar sırasına daha biri əlavə olunub. Xətai rayonu, Nəcəfqulu Rəfiyev və Süleyman Vəzirov küçələrinin kəsişməsində ucaldılan yeni bina da müasir memarlığı ilə diqqəti cəlb edir.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bina barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, yeni binanın tikintisinə 2017-ci ildə başlanılıb və bu ilin iyun ayında başa çatdırılıb. Müasir memarlıq üslubuna uyğun inşa olunan bina nazirliyin aparatı ilə yanaşı, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Tədqiqatlar Mərkəzi, Aqrar İnnovasiya Mərkəzi və Aqrar İnkişaf Könüllüləri olmaqla 500-ə yaxın əməkdaşın fəaliyyəti üçün nəzərdə tutulub.

*(ardı 2-ci səhifədə)*

## İsveçin Kralı Əlahəzrət XVI Karl Qustava

**Əlahəzrət,**

İsveç Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınıza daim firavanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 iyun 2023-cü il**

## A.N.Mollazadənin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Asim Nazim oğlu Mollazadə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2023-cü il**



## Taxıl biçininə hazırlıq başa çatıb

Səhifə ⇨ 7

## "Makronologiya", yaxud Fransa imperializmində Edip kompleksi



Səhifə ⇨ 3



## Koksun "Lenin yolu"

Səhifə ⇨ 3



## Naxçıvan "yaşıl enerji" zonasına çevrilir

Səhifə ⇨ 7

## Türk İnvestisiya Fondu qardaş ölkələrin daha da güclənməsinə təkan verəcək




Səhifə ⇨ 8



## İbrahim Kalın – "Ərdoğanın çoxdankı sirdaşı"

Səhifə ⇨ 8

## Nəzərlər yenidən Vaşinqtona yönəlir



Səhifə ⇨ 4

## Ukraynada strateji obyekt partladılıb

Səhifə ⇨ 8

## Jurnalistikanın halallıq ənənəsi



Səhifə ⇨ 10

## II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı davam edir



Səhifə ⇨ 9




## Xəritələr: dövrün və şəraitin korrektələri

Səhifə ⇨ 4

# Aqrar sahəyə dövlət dəstəyi davamlıdır



(əvvəli 1-ci səhifədə)

Binanın hündürlüyü 12 metr olan foyesində "Əbədiyyət" kompozisiyası nümayiş olunur. Kompozisiyanın müəllifi rəssam-heykəltaraş Rəşad Mehdiyevdir.

Üç hissədən ibarət olan kompozisiyanın rəmzi motivi Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyini əks etdirir.

Kompozisiyada Azərbaycan xalqının həyat fəlsəfəsinə uyğun əbədi dəyərləri, qalib insan ruhunu, zəhməti və bərəkəti, dayanıqlılığı nümayiş etdirən ideyalar əksini tapıb. Mərkəzdə Heydər Əliyevin büstü olan kompozisiyada ağacın budaqları səmaya və sonsuzluğa doğru ucalır. Kufi üslubunda xüsusi bir nizamla yaradılan şəbəkə səmanı ifadə edir. Səmada ümummilli liderin anadan olmasının 100 illiyini əks etdirən 100 ulduz parlayır.

Ağacla bərabər səmaya ucalan sütunlar ərzaq təhlükəsizliyinin dayanıqlılığını təcəssüm edir. Ağacın budaqları kompozisiyanın sağına – qələbə və sülhün bərqərar olduğu bərəkətli torpaqlar əks edilmiş rəsmə doğru uzanır. Yağlı boya ilə işlənən əsərdə əzəmətli dağın və geniş buğda zəmisinin üzərindən səmaya doğru pərvazlanan göyərçinlər 44 günlük Vətən müharibəsində qazanılan Qələbəni müjdələyir.

"Əbədiyyət" kompozisiyasının sol hissəsində torpaqlarımızda yetişən nemətləri təqdim edən insan əlləri heykəli əks etdirilib. Bərəkət və zəhməti təcəssüm etdirən əllər ağacın budaqlarından qidalanır.

Qeyd edildi ki, burada ümummilli liderə həsr olunan xüsusi "Heydər Əliyev-100" guşəsi də yaradılıb. Bu il xalqımız müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Ulu öndərin Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı gördüyü işlər guşədə geniş əks olunub.



Nazirliyin yeni binası ilə tanışlıq zamanı qeyd olundu ki, 215 otaqdan ibarət işçi mərtəbələrdə əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada nazirliyin Elektron İdarəetmə Mərkəzi üçün xüsusi otaq və müasir multimedia vasitələri ilə təchiz olunan konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxana var. Diqqətə çatdırıldı ki, ərazidə 170 avtomobil yerlik dayanacaq yaradılıb.

***

Qeyd edək ki, ölkəmizdə kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi, aqrar sığorta mexanizminin tətbiqi aqrar sahənin dinamik inkişafına müsbət təsirini göstərir. Bunun nəticəsidir ki, 2022-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının həcmi 3,4 faiz artıb. Artım dinamikası 2023-cü ilin ilk dörd ayında da qorunub saxlanılıb. Həmin müddətdə ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcmində ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artım qeydə alınıb.

Subsidiyaların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə verilməsi, aqrar sahədə rəqəmsallaşma səviyyəsinin ildən-ilə artmasını təmin edir. Aqrar sahəyə dair müasir innovasiyalar və texnologiyalara, texnoloji yeniliklərə, kənd təsərrüfatı texnikasına, damazlıq heyvanlara əlçatanlığın təmin edilməsi, gübrə bazarının liberallaşdırılması sağlam rəqabət mühitinin formalaşmasına səbəb olub.

Məhsul istehsalının artması kənd təsərrüfatı məhsullarının ixrac potensialını yüksəldib. Belə ki, ötən il ölkəmizdən xarici bazarlara 886,1 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulu çıxarılıb. İxracın həcmi əvvəlki illə müqayisədə 1 faiz artıb.

***AZƏRTAC***

## Azərbaycan Respublikasında qida təhlükəsizliyi sahəsində fərqlənən bir qrup şəxsin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında qida təhlükəsizliyi sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayev Asəf Azad oğlu
Ələkbərov Malik Mürsəl oğlu
Əliyeva İlahə Mirsə-Əli qızı
Əliyeva Tamilla Aliyevna
Hacıyeva Aytən Tofiq qızı
Hümbətov Sirac Mərfət oğlu
İbrahimov İsmayıl Nadir oğlu
Məmmədov Sadiq Ərzuman oğlu
Zeynalov Nizami Əkbər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 180** **Bakı şəhəri, 2 iyun 2023-cü il**

***"İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"nın təsdiq edilməsi haqqında***

"İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən istifadəyə görə maliyyə yardımı göstərilməsi haqqında" Azərbaycan Respublikası Preziden-tinin 2023-cü il 1 may tarixli 2131 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə bu Qərara uyğun olaraq maliyyə yardımı alan işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarların uçotunun aparılmasını təmin etsin.

**3.** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

**4.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 181** **Bakı şəhəri, 5 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 823; 2018, № 8, maddə 1797; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 fevral tarixli 35 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"nin 2.4-cü bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Latviya Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Edqars Rinkeviçsə

**Hörmətli cənab Rinkeviçs,**

Latviya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Latviya münasibətlərinə xüsusi əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcək, strateji tərəfdaşlığımız və səmərəli əməkdaşlığımız daha da genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Latviya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2023-cü il**

## Nigeriya Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Asivaju Bola Ahmed Tinubuya

**Hörmətli cənab Prezident,**

Nigeriya Federativ Respublikasının Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Nigeriya münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Nigeriya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2023-cü il**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Əs-səlamu aleykum va rahmatullahi va barakatuhu.**

Dost Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə böyük məmnuniyyətlə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı və uğurlar, dost xalqınıza davamlı tərəqqi və firavanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz və xalqlarımız arasında münasibətləri möhkəmləndirmək, birgə əməkdaşlıq əlaqələrini inkişaf etdirmək əzmində olduğumu vurğulayıram.

**Dərin hörmətlə,**

***Əbdüllətif Camal RƏŞİD,***
***İraq Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Məmnunluqla bildirirəm ki, birgə səylərimiz sayəsində qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığımız müxtəlif sahələrdə daha da güclənir. Həmçinin inanıram ki, ikitərəfli əməkdaşlıq kənd təsərrüfatı, nəqliyyat və turizm sahələrində də genişlənərək daha da möhkəmlənəcəkdir.

Bu fürsətdən istifadə edərək, Sizə münasib olan vaxtda Zati-alinizi Monqolustana səfərə dəvət etmək istəyirəm.

Zati-aliləri cənab Prezident, Sizə möhkəm cansağlığı və firavanlıq, dost Azərbaycan xalqına isə rifah arzulayıram.

**Dərin hörmətlə,**

***Uxnaaqiyn XÜRELSÜX,***
***Monqolustanın Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına Avstraliya hökuməti və xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq əlaqələri növbəti illərdə də inkişaf edəcəkdir.

**Dərin hörmətlə,**

***Devid Con HÖRLİ,***
***Avstraliya İttifaqının General-Qubernatoru***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ölkənizə və xalqınıza əmin-amanlıq, uğurlar, rifah diləyirəm.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Maha VAÇİRALONQKORN,***
***Tailandın Kralı***

**Zati-aliləri!**

Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, Zati-alinizə xoşbəxtlik və möhkəm cansağlığı, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

**Hörmətlə,**

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Eyni zamanda, qardaş Azərbaycan xalqına firavanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***Luis ABİNADER,***
***Dominikan Respublikasının***
***Prezidenti***

***

**Zati-aliləri!**

Uruqvay xalqı və hökuməti adından, şəxsən öz adımdan Azərbaycanın Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi, həmçinin əziz xalqınıza sülh və firavanlıq arzularımı qəbul edin.

Qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında çox gözəl ikitərəfli münasibətlər yaranıb. Bu münasibətlərin iqtisadi, siyasi, mədəni əməkdaşlıq zəminində daha da möhkəmlənəcəyinə tam əminəm.

Cənab Prezident, fürsətdən istifadə edərək, Sizə ən yüksək ehtiramımı bildirirəm.

***Luis Lakalye POU,***
***Uruqvay Şərq Respublikasının***
***Prezidenti***

***

**Zati-aliləri, hörmətli Prezident İlham Əliyev!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Bəhreyn Krallığının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuram. Zati-alinizə cansağlığı və səadət, Azərbaycan Respublikasının dost xalqına davamlı tərəqqi və rifah diləyirəm.

Zati-aliləri, yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Salman bin Həməd***
***Al XƏLİFƏ,***
***Bəhreyn Krallığının***
***vəliəhdi və Baş naziri***

## Müdafiə Nazirliyi: Mövqelərimiz atəşə tutulub

**İyunun 6-sı saat 11:40-dan saat 16:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Qaraiman yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Daşkəsən rayonunun Astaf yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.**

Bundan başqa, saat 16:25 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

Bölmələrimiz tərəfindən qeyd olunan bütün istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

***"Xalq qəzeti"***

# “Makronologiya”, yaxud Fransa imperializmində Edip kompleksi

## Herentofillikdən prezidentliyə doğru, enişin Monqolustan qütbü və Paris Rusiya–Ukrayna müharibəsi fonunda



**“Bu yaramaz uşağın böyüyüb kim olacağını düşünəndə adamın tükləri biz-biz olur”. “Sehrli xalat” filmində səslənmiş bu ifadə bir növ zərb-məsəldir. Yazımızın qəhrəmanı da, necə deyərlər, yaramaz uşaqdır. Sadəcə “Sehrli xalat”ın Rəşidindən fərqli olaraq, müsbət obraz deyil, anti-qəhrəmandır.**

Bu uşaq dindar sayılmayan ziyalı ailəsində doğulmasına rəğmən, 12 yaşında katolik kimi vəftiz olunmaq istəyib və olub. Sonra dini dünyagörüşü baxımından aqnostikliyə maraq göstərib. Yəni, yayğın, Tanrı və tanrıyabənzər, mövcudluğu ilə yoxluğu müəyyənləşdirilməyən varlıqlara inamı aşılayan fəlsəfi cərəyanın təmsilçisinə çevrilib və bu yeniyetmənin gələcəyinə təsir göstərməyə başlayıb. Yeri gəlmişkən, o, indinin özündə də aqnostikdir.

...15 yaşında özünün həmin vaxt 40 yaşını haqlamış ədəbiyyat müəlliminə vurulub. Qeyd edək ki, psixoanaliz nöqteyi-nəzərindən yeniyetmənin davranışı Edip kompleksi kimi xarakterizə edilir. Bu kompleksi uşağın şüursuz şəkildə əks cinsdən olan yeni valideynə sahiblənmək istəyi səciyyələndirir. Tədricən istək valideynliyi aradan qaldırmağa köklənir. Freydin bu fenomenini şərh etmək üçün əsas götürdüyü Edip mifində söhbət təkcə ana ilə oğul arasındakı “insest sevgi”dən getmir. Məsələyə həm də üsyana qalxmış oğulun etirazı kimi baxmaq olar. O, patriarxal ailədə ata hakimiyyətinə qarşı çıxır. Yəni, bu mifdə əsas olan cinsi fon deyil, şəxsiyyətlərarası münasibətlərin məğzini təşkil edən gücə münasibətdir. Nəhayət, Edip gücü yenir və əks cinsdən olan “valideynə” sahiblənir. Daha doğrusu, 40 yaşlı müəllim öz həyat yoldaşından ayrılır. Hələ buna qədər isə yeniyetmənin doğma atası həmin müəllimə yaxınlaşıb ondan uşağın, heç olmasa 18 yaşına çatmasını gözləməyi xahiş edir ki, bəlkə övladının fikri dəyişər. Şagirdinə daha yaxşı “bələdçiliyə malik” pedaqoqun cavabı isə təxminən belə olur: sizə heç nə söz verə bilmərəm.

Bəli, yeniyetmənin fikri dəyişmir. Hərçənd, özündən 25 yaş böyük olan müəllimi ilə ailə həyatı qurması vaxt aparır. Nə az, nə çox, düz 14 il. Nəhayət, 2007-ci ildə cütlüyün nigahı qeydə alınır. Bundan 10 il sonra isə ədəbiyyat və latın dili müəllimi ölkənin birinci xanımına çevrilir. Diqqətli oxucularımız, çox güman, söhbətin hansı cütlükdən getdiyini təxmin etdilər.

***

Əlbəttə, məqsədimiz Fransa Prezidenti Emmanuel Makronun şəxsi həyatını incələmək deyil. Diqqətə çatdırdığımız məqamlar da əslində aşağı-yuxarı bir çoxlarına məlumdur. İstəyimiz herentofil psixoloji patalogiyasına malik birinin Fransanı da həmin patalogiyaya uyğun idarə etməsini diqqətə çatdırmaqdır. Nəzərə alaq ki, bu idarəçiliyin yaşadığımız coğrafiyaya da təsiri var. Çünki hazırda Makronlu Fransa Avropadan və Avropa maraqlarından tam uzaq düşüb, dövlət başçısı ölkə lideri adının sanbalını özünün 16 yaşındakı motivlərinə qurban verib. Daha doğrusu, Makron rəsmi Parisin siyasətini özündən 25 yaş böyük olan həyat yoldaşı Bridciti vaxtilə əldə etmək üçün baş vurduğu ambisiya notlarına köklənmiş durumdadır. Onun özü də həmin köklənişdən çıxa bilməyib. Dünyaya eyni “özünütəsdiq bucağından” yanaşır. Bu səbəbdən siyasətin müasir düzəni bu şəxs üçün qətiyyən maraqlı deyil.

***

İlk baxışdan, mənzərə sadəlövh görünə bilər. Ancaq Makronun karyera yüksəlişi göstərir ki, o, heç də sadəlövh deyil. Yəni, Fransa Prezidentinin kosmopolit təsir bağışlayan tərzi aysberqin yalnız görünən tərəfidir. Nəzərə alaq ki, Makronun ölkənin İqtisadiyyat Nazirliyində maliyyə müfəttişliyindən başlanmış siyasət yolunda başlıca hədəf pul idi. Emmanuelin daha böyük pullar üçün ödəniş etməsi reallığı da var. O, 2008-ci ildə, yəni Bridcitlə ailə qurandan bir il sonra 50 min avro verərək, dövlətlə arasındakı müqaviləni pozub. “Rothschild&Cie” qrupunda ticarət bankçısı işinə başlayıb. 2012-ci ilədək bu vəzifədə qalarkən, “Pfizer” şirkətinin bir qolunun “Nestle” tərəfindən satın alınması işinə girişib və 9 milyard avro qazanıb.

Əslində son dövrlərin Fransası ölkə liderlərinin pula hərisliyi və qeyri-ordinar hərəkətləri baxımından diqqət çəkməkdədir. Yada salaq ki, Makrondan əvvəlki dövlət başçısı Fransua Olland hakimiyyəti illərində yalnız bir məsələ – 2013-cü ildə eynicinslilərin nikahını rəsmiləşdirən qanunu imzalaması ilə diqqət çəkmişdi. Ollandan əvvəlki Prezident Nikola Sarkozi isə həbsə düşüb. 1984-cü ildə ölkənin Neuilly bələdiyyəsinin sədri kimi nikahını kəsdiyi qadınla 1996-cı ildə ailə qurmuş Sarkoziyə, həmçinin 2007-ci ildə onun prezidentlik kampaniyasını Liviyanın o zamankı lideri Müəmmər Qəddafinin maliyyələşdirməsi ilə bağlı səs-küylü işdə iştirak edən 12 nəfərə qarşı cinayət mühakiməsinin keçirilməsi Avropanın gündəmindən düşmür.

Əlbəttə, Makron nə Sarkozi deyil, nə də Olland. İkincilər onun yanında daha sadəlövh görünürlər. Hərçənd, Sarkozinin pul hərisliyi baxımdan Fransanın hazırkı dövlət başçısına yaxınlığını iddia etmək mümkündür. Bəs, Makronun bu hərisliyi barədə nə demək mümkündür? Nəzərə alaq ki, 2008-ci ildə dövlət qulluğunu daha çox vəsait qazanmaq üçün tərk etməsini və uğur əldə etməsini ona damğa kimi vurmaq bir o qədər yerinə düşmür. Deməli, daha nələrsə var. Bu baxımdan Fransa–Rusiya əlaqələri üzərində dayanmaq mümkündür. İlk baxışdan, görünən mənzərə budur ki, Paris dünyanın aparıcı qüvvələri kimi Moskvaya qarşıdır. Ancaq reallıq necədir?

***

Son vaxtlar dünya mediasına çıxmaqda olan bəzi məlumatlar Makronun gizli Rusiya təəssübüsünü qabartmaqdadır. Həmin məlumatlarda onun iqtisadi mənfəətlər naminə Kremli dəstəklədiyi iddia olunmaqdadır. Yəni, ilk baxışdan, anti-Rusiya müstəvisində yer aldığı görünən Fransa əslində Moskvanın Ukrayna cəbhəsində ayaqda qalmasını təmin edən qüvvə qismində təqdim olunur. Yeri gəlmişkən, mövcud xüsusda Ermənistanla işbirliyi də qabardılmaqdadır.

Qeyd edək ki, bu günlərdə ABŞ mediasında Ermənistana elektron məhsulların ixracının kəskin şəkidə artdığına dair məlumatlar yayılmışdı. Söhbət raketlərin hərəkətə gətirilməsi üçün elektron elementlərdən – mikro çiplərdən gedir. O elementlər ki, sanksiya səbəbindən Rusiyanın onları əldə etməsi mümkünsüzdür. Yayılmış məlumatlarda Ermənistanın bu işdə transizt funksiyası daşıdığı önə çəkilirdi. Ehtimallar var ki, hazırkı Fransa–Ermənistan işbirliyində mövcud məqam da əsas götürülməkdədir. Yəni, bu müstəvidə Paris İrəvana patronajlıqla məşğuldur. Deməli, Fransanın erməni təəssübkeşliyinin müasir aspektlərində biznes maraqlarının dayandığı barədə söz açmaq mümkündür. Hər halda, qərbpərəst Ermənistan o nəhənglikdə “biznesi” təkbaşına idarə edəcək, özünü riskə atacaq potensialda deyil...

Fransanın Rusiya ilə bağlı mövqeyinin dünya dövlətləri tərəfindən qəzəblə qarşılandığını da yada salmalıyıq. Makron ötən ilin oktyabrında ölkə televiziyasına müsahibəsində bildirmişdi ki, Rusiya nüvə silahı işlədərsə, Fransa ona sanksiya tətbiq etməyəcək. Belə bir baxışın səslənməsi, ilk növbədə, Britaniyanı hiddətləndirmişdi. Hələ o zamandan Parisin Moskvanın dirənişində rol oynadığına dair mülahizələr gündəmə gəlməyə başlamışdı. Doğrudur, Makron vaxtaşırı anti-Rusiya tezislərini dövriyyəyə buraxmaqla, diqqəti öz üzərindən yayındırmağa müvəffəq olur...

Ümumən, Fransının dövlət başçısının Rusiya–Ukrayna müharibəsi fonunda səsləndirdiyi fikirlər savaşın hazırkı arealından daha yüksək fazada olduğu barədə təsəvvür formalaşdırmağa hesablanıb. Məsələn, o, bu ilin fevralında Avropa İttifaqını müdafiə xərclərini artırmağa çağırmış, Böyük Britaniya, Fransa, Almaniya kimi ölkələrin və sənaye nümayəndələrinin iştirakı ilə Avropada Hava Hücumundan Müdafiə Konfransının keçirilməsini təklif etmişdi. Sual olunur: Rusiya təhlükəsi bu qədərmi geniş miqyaslıdır? Onsuz da ölkə hər tərəfdən sanksiya burulğanındadır.

Bəli, Makron sadəcə görüntü yaradır. Burada diqqət yetirilməli məqam onun xərclərin artırılmasını vurğulamasıdır. Bəs, özü bunu edirmi? Əslində yox. Hazırda Ukraynanın dirənişinə böyük dövlətlərlə müqayisədə ən az töhfə verən Fransadır. Daha doğrusu, ən minimal pul xərcləyən Parisdir. Deməli, Makron çalışır ki, böyük dövlətlər anti-Rusiya cəbhəsinə maliyyə enerjisi sərf etməklə taqətdən düşsünlər. İlin əvvəlində “Rusiya məğlub olmayanadək Ukraynada sülh olmayacaq” deyən Makron bir neçə gün əvvəl bildirib ki, “biz Rusiya ilə müharibə aparmırıq. Bu, Rusiya ilə müharibə deyil. Biz Ukraynaya müqavimət göstərməyə kömək edirik, bu o deməkdir ki, biz Rusiya ərazisinə çata biləcək və ya Rusiyaya hücum etməyə yardımçı olacaq silahlar tədarük etmirik”.

Görəsən, Makron Rusiyanın məğlub olmasını necə təsəvvür edir? Hər halda, indiki məqamda inanmaq sadəlövhlük olar ki, Moskva Əfqanıstanda olduğu kimi, qoşunlarını Ukrayna ərazisindən geri çağıracaq. Hər halda, Rusiya Prezidenti Vladimir Putin bunun ölkəsi üçün hansı mənfi perspektivi doğuracağını bilməmiş deyil.

Deməli, Fransa Ukraynada davamlı müharibə mühitinin mövcudluğunu istəyir. Necə də istəməsin? Axı, Rusiya ilə savaşın aparıcı ölkələrə ziyanı Makrona imkan verir ki, ölkəsindəki durğunluğa qlobal izah tapsın və fikrini yerli ictimaiyyətə sırıyaraq hakimiyyət kürsüsündə qalsın. Makronun istəyi budur. Digər tərəfdən, müharibədə itirən və sözün böyük anlamında qazanan tərəf var. Makron sözdə Rusiyanın, obrazlı desək, suyun qarşısını kəsmiş əjdaha simasını formalaşdırıb əjdahaya qarşı mübarizəyə təhrik etməklə bərabər, həmin əjdahanı ayaqda tutmaq istəyir ki, qazanmış tərəf özü olsun.

***

Fransa istər Makronla, istərsə də ona qədərki liderlərlə özünü dünyaya qeyri-ciddi təqdim edib. Əslində, yaşadığımız tarix qlobal Fransa imperializminin qürubuna da şahidlik etməkdədir. Qurdluqdan düşəni yemək qaydası var. Makronu düzgün dərk etdiyi elə budur və buna qarşı müqavimət göstərir. Əslində göstərdiyi müqavimət yox, çırpıntıdır. Fransa Prezidenti ölkəsinin siyasət nəhəngləri tərəfindən “yemə” çevriləcəyinin fərqindədir, sadəcə siyasi düşüncəsi çatmır ki, həm buna qarşı çıxsın, həm də harada səhvə yol verdiyini anlasın. Nə etmək olar, Fransanın siyasi sistem kasaddır, ortaya rasional düşüncə sahibi qoya bilmir. Nəticə etibarilə, əslində təsadüf nəticəsində hakimiyyətə gəlmiş və bunu etiraf etmiş Makron ölkəsinin qlobal mövcudluq axtarışı uğrunda Yelisey sarayı rəhbərlərinin indiyədək heç vaxt yollanmadığı Monqolustana səfər gerçəkləşdirir. Öz aləmində yeni qütb formalaşdırır...

Bəli, Makron yaxşı bilir ki, Rusiya–Ukrayna müharibəsindən sonra yaranacaq siyasi sistemdə Fransanın maraqlarına yer yoxdur. Bu səbəbdən, müharibənin mümkün qədər çox davam etməsini istəyir və mövcud kontekstdə Fransa–Rusiya gizli əməkdaşlığının Moskvanı ayaqda tutmaq məntiqi ilə bağlı dünya mediasına yol tapmış fikirlərin həqiqət payı üzərində dayanmaq mümkündür. Başqa bir tərəfdən, Parisin müharibənin davam etməsindən yararlanıb, ayrı-ayrı istiqamətlər üzrə özünün hakim mövqe tutmaq istəməsi amili də var. Budur, Makron Cənubi Qafqazda fəallıq göstərir.

Ümumən, sadaladıqlarımız Makron Fransasının cılız hərkətlər trayektoriyasının məhsulu kimi meydana çıxmaqdadır. Bu sayaq gedişlər, təxribatçılıq meyilləri uğur qazanmaq üçün kifayət deyil. Söhbət sırf Fransa Prezidentinin özündən gedirsə, belə görünür, onun ən böyük uğuru həyatını özündən 25 yaş böyük müəllimi ilə bağlamağı bacarmasıdır. Bu yerdə “Şərikli çörək” filmindəki bir ifadə yada düşür: “Uşaqda fərasətə bax ey!..”.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

# Koksun “Lenin yolu”

## *Britaniyalı parlamentarinin gəbərmiş “Miatsum”u xortlatmaq istəyi*

**Bolşevizmin banisi Leninin “Bütün dünyanın proletarları birləşin!” şəklində saxta beynəlmiləlçiliyə söykənmiş çağırışı var. Belə görünür, Britaniya Parlamentinin Lordlar Palatasının üzvü, baronessa Kerolayn Koks da Leninin yolu ilə gedir. Hərçənd, ermənipərəstliyi çoxdan sübut olunmuş bu britaniyalı siyasətçinin Qarabağ ermənilərinə ünvanlanmış və həyasızlığın sentimentallıqla çulğalaşdığı məktubuna nəzər salarkən, Lenini yada salmaq, ona həqarət sayılmalıdır. Amma bunda hansısa problem görmürük...**



K.Koks bildirir ki, İkinci Qarabağ müharibəsi zamanı dünya ədalət yanaşması baxımından kar və kor oldu. Belə çıxır, beynəlxalq ictimaiyyət Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinə maneçilik törətməli imiş. Ona görə ki, Qarabağ erməniləri, Koksun bildirdiyi kimi, “Artsax xalqı” qəhrəmandır, mərddir, iradəlidir və s. Əsaslandırma bu qədər primitivdir, ucuz populizmə söykənir. Böyük anlamda isə Lordlar palatasının üzvünün beynəlxalq hüquqa saymazyana münasibəti heyrət doğurur.

Başa düşdük ki, xanım parlamentari köhnə şakərindədir. Amma adamın bu cümləsini başa düşmək olduqca çətindir: “Mənə dedilər ki, 1990-ci illərdə Qarabağda 88 dəfə olmuşam”. Görünür, xanım Koksa harada, neçə dəfə olduğunu kimsə bildirməlidir? Əlbəttə, həmin illərdə Koks erməni avantürizminin Qərb qanadının təmsilçisi kimi Qarabağa səfərlər edir, erməni millətçilərinin qəsbkarlıqlarını görür və onların işğalçılığını beynəlxalq ictimaiyyətin gözündə haqq davası kimi leqallaşdırmaq istiqamətində aramsız təbliğat aparırdı. “Xidmətlərinə” görə yaxşı bəxşiş də alırdı.

Amma görünür, erməni avantürizmi kimi o da qocalıb. Qocaldığı üçün də yaddaşını itirib. Əslində məktuba diqqət yetirəndə də bunu hiss etmək mümkündür. Çünki onun yazdıqlarının müəyyən hissəsi keçmişin naftalin qoxulu çərənləmələridir. Barronesa tarixə baş vurarkən, gedib Sumqayıt hadisələrinə çıxır, Azərbaycanı şəhərdə qırğınlar törətməkdə günahlandırır. Halbuki, Sumqayıt olaylarının sovet rəhbərliyindəki erməni daşnak millətçilərinin hazırladıqları “ssenari” olduğu sübuta yetirilib.

Bəli, Koksun məktubunda, axmaqlamalar kifayət qədər çoxdur. Görünür, ona Qarabağda 88 dəfə olduğunu söyləyənlər baronessanın məktubuna Azərbaycanın 44 günlük müharibədə, guya, terrorçulardan istifadə edərək, qalib gəldiyini dürtməyi də unutmayıblar. Üstəlik, sən demə, savaşdan sonra ölkəmiz bölgədə xristian mədəniyyətinin izlərini silməklə məşğuldur. Hələ bu sıraya “dünya mədəniyyəti incilərinə təcavüz faktlarını” da əlavə etmək mümkündür. Sanki, otuz ilə yaxın müddətdə Azərbaycanın torpaqlarını yağmalayanlar xanım Keralaynın dostları deyilmişlər...

Bəli, B.Koks hazırda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanma ehtimalının böyüklüyündən ciddi narahatdır. Nəinki narahatdır, həmin müqaviləyə görə Qarabağın Azərbaycan ərazisi kimi təsdiqlənməsindən sancıya düşür və ərazidəki erməni əhalinin taleyi ilə bağlı həyəcan təbili çalır: “Beynəlxalq güclərin qondarma sülh müqaviləsi müqabilində “Artsaxı” Azərbaycan Respublikasına qurban verməsi üçün Ermənistan Respublikasına təzyiq göstərməsi barədə məlumat məni dərindən narahat edir. Məlumatlara görə, danışıqlar prosesinin iştirakçıları bu razılaşmanın Ermənistan Respublikasının sərhədlərinin təhlükəsizliyini təmin edəcəyini və türk dünyası ilə ticarətə imkan verəcəyini bildirirlər”.

Yox, xanım Koks eşidir. Çox qocalmayıb. O, hələ siyasi məsələlərdən də anlayışlıdır və konspriologiyasını işə salaraq deyir ki, sülh və firavanlıq vədlərinin qiyməti, daha doğrusu, ödənci var. “Sülh müqaviləsi hazırkı formada imzalansa, siz öz müqəddəratınızı təyin etmək üçün beynəlxalq hüququnuzdan imtina etməli olacaqsınız. Həyatınıza, azadlığınıza və torpağınıza nəzarətdən əl çəkəcəksiniz. Ermənistan Ali Ruhani Şurasının son bəyanatını qeyd edim: “Artsax Respublikası”nı Azərbaycanın bir hissəsi kimi tanıyan Ermənistan hakimiyyəti qaçılmaz olaraq “Artsax”dakı qardaş və bacılarımızı yeni soyqırımı və deportasiya qarşısında qoyacaq”, – yazan Koksun erməni lobbi və diaspor təşkilatlarının hazırkı durumla bağlı irəli sürdüyü təqdimat notlarına köklədiyi, sülh prosesini pozmaq üçün hərəkətə keçdiyi aşkardır.

Təxribatçı mövqe tutan Lordlar palatasının üzvünün çərənləmələrində əlavə bir neçə məqam da var. Əvvəla, o, necə deyərlər, sarı simlərə toxunur. “Artsax xalqı” adlandırdığı amorf kütləni qəhrəman kimi qələmə verərək, çalışır ki, bu kütlə silaha sarılsın. Kerolaynın təsvir etdiyi indiki mənzərədə Qarabağ erməniləri milli mənlik hisslərini, şərəflərini, ləyaqətlərini itirmiş alçaq durumdadırlar. O, özü bilərəkdən məktubuna sadə insanların qüruruna toxuna bilmə ehtimalı böyük olan ifadələr daxil edir, təhrik yolu tutur. Göründüyü kimi, xanım parlamentarinin sentimentallığının arxasında qəddarlıq, təfriqə yaratmaq istəyi dayanır.

Koks sülh müqaviləsindən sonrakı durumla bağlı da söz açır. O yazır ki, rəsmi Bakı sənəddə göstərilənlərə əməl etməyəcək. Bu cür fikir bildirməkdə məqsəd Qarabağ ermənilərini Azərbaycana qarşı hərəkətə keçirməkdir. Digər yandan isə yerli əhalinin ölkəmizin yurisdiksiyası altında yaşamasının yolverilməzliyini vurğulayır, qorxu və həyəcan yaradır.

Bu yerdə onu da deyək ki, dünya erməniliyi Qarabağ ermənilərinin ölkəmizin tabeliyində qalmasındansa, onların fiziki cəhətdən məhvinə üstünlük verir. Baxın, Koks da etnik təmizləmədən, soyqırımından danışır. Faktiki olaraq, həmin mənfur planın detallarına diqqət yetirir. Deməli, bu günlərdə, yaxud sülh müqaviləsinin bağlanması istiqamətində işlərin intensivləşəcəyi təqdirdə, Qarabağdakı qanunsuz silahlı hərbi birləşmələrinin yerli erməniləri qətlə yetirməyə başlayacaqları ehtimalı yaranır. Sonra da Koks kimi ermənibaşlar bunu Azərbaycanın üstünə yıxmağa cəhd göstərə bilərlər. Hər halda, dünya erməniliyinin belə bir mənfur ssenarisinin mövcudluğu şübhəsizdir. Tarix boyu oxşar vəhşi əməlləri çox törədiblər. Bu kəsim eyni zamanda, “ermənilərsiz Qarabağ” formulunu avantürizmin niskili şəklində gələcəyə daşımaq niyyətindədir. Britaniyalı parlamentarinin məktubunda da həmin niskil ifadə olunmaqdadır.

Sonda yenidən Leninin əvvəldə haqqında söz açdığımız məşhur saxta şüarına diqqət yetirərək, fikrimizi yekunlaşdıraq. Bəli, K.Koksun naməsi Azərbaycan–Ermənistan nizamlanması prosesindəki hazırkı pozitiv çalarları heçə endirmək yönümlü aşkar təxribat mətnidir. Tam aydındır ki, ona məktub yazdıranların məqsədi də məhz budur. Əlbəttə, Koks və onun kimi küpəgirənlərin səyləri əbəsdir. Çünki Qarabağda separatizmin nəfəsi kəsilmək üzrədir. Elə bu məzmunlu məktub da separatizm üçün aqoniya anının uzaq olmadığından xəbər verməkdədir. Belə saxta məzmunlu mətnlər hansı pafoslu tonda təqdim olunmasından asılı olmayaraq, gəbərmiş “Miatsum” ideyasının xortlaması üçün birləşdirici rol oynaya bilməz.

***Ə.RÜSTƏMOV,***
***“Xalq qəzeti”***

# Nəzərlər yenidən Vaşinqtona yönəlir

## *Azərbaycan və Ermənistan sülh danışıqlarının ən intensiv və həlledici dövrünə qədəm qoyub*

**Praqa, Brüssel, Vaşinqton, Moskva, Kişineu, indi yenidən Vaşinqton və daha sonra yenə Brüssel... Ortada İrəvanın və Bakının Moskvaya dəvət olunması ehtimalını da nəzərə alsaq, sülh meridianının üç qitədən keçdiyi məlum olur. Əslində, otuz ildən artıq təkcə bölgənin deyil, qitələrin, bütövlükdə dünyanın gündəmini məşğul etmiş münaqişənin son akkordları çalınmaqdadır.**

2023-cü il mayın 14-də Brüsseldə əldə olunmuş şifahi razılaşmanı sülh danışıqlarının ən böyük uğuru kimi dəyərləndirən ekspertlərlə razılaşmamaq çətindir. Aİ Şurasının rəhbəri Şarl Mişelin moderatorluğu ilə baş tutmuş bu formatda danışıqları tarixi görüş kimi səciyyələndirənlər də az deyil. Bu isə təsadüf sayılmamalıdır. Çünki həmin üçtərəfli görüşün yekununda hətta konkret heç bir sənəd imzalanmasa belə, məhz 14 may sammiti Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağ daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıması ilə bağlı bəyanatı sülh sazişinin imzalanmasına aparan yolda ən böyük maneənin aradan qaldırılması anlamında böyük əhəmiyyətə malik idi. Moskvadan savayı Ağ Evin, onunla paralel avropalı vasitəçilər blokunun Cənubi Qafqazda sülhə nailolma səyləri, Bakı və İrəvan arasında tet-a-tet, üçtərəfli və beştərəfli danışıq raundlarının intensiv xarakter alması müsbət nəticənin elə də uzaqda olmadığından xəbər verir.

### Ağ Ev nazirləri səbirsizliklə gözləyir

Beş gündən sonra Azərbaycan və Ermənistan XİN başçılarının Vaşinqtonda növbəti görüşü gözlənilir. "ABŞ Azərbaycan–Ermənistan təmasının müxtəlif platformalarda keçirilməsindən məmnundur. Vaşinqtonda danışıqların daha bir raundunun keçirilməsini səbirsizliklə gözləyirik". Bu sözləri ABŞ Dövlət Departamentinin mətbuat katibinin birinci müavini Vedant Patel keçirdiyi brifinqdə deyib. O, bildirib ki, tərəflər Cənubi Qafqaz regionunda dinc gələcəyə nail olmaq yolunu davam etdirirlər. "Birbaşa dialoq problemlərin həllinin və davamlı sülhün əldə edilməsinin açarıdır. ABŞ Azərbaycanla Ermənistan arasında danışıqların müxtəlif platformalarda keçirilməsindən, o cümlədən, liderlərin son görüşlərindən məmnundur", – deyə cənab Patel vurğulayıb.

Adətən xarici diplomatiya idarələri səviyyəsində görüşlər dövlət başçılarının qarşıdakı dialoquna hazırlıq mərhələsi kimi qəbul edilir, amma bəzi hallarda dövlətlərarası müəyyən məsələlərə dair ilkin razılaşma və ya çərçivə sazişinin XİN başçıları tərəfindən imzalanması presendentləri də mövcuddur. Sülh və dövlətlərarası münasibətlərin normallaşmasına dair çərçivə sənədinin ortaya qoyulması perspektivindın danışan **politoloq Əhməd Əlili** bu kontekstdə baş nazir Nikol Paşinyanın hələlik sülh sazişi ilə məsafə saxlamağa davam edəcəyini, amma bunu onun əvəzinə xarici işlər nazirinin gerçəkləşdirə biləcəyi ehtimalını irəli sürür:

***"Belə bir sənəd sülh prosesində yalnız tərəqqinin göstəricisi olacaq.***



***Düşünürəm ki, hansısa bir sənəd imzalanmalıdır və artıq köhnəlmiş 2020-ci il 10 noyabr Bəyanatını əvəz etməlidir. Çünki üçtərəfli Bəyanatın imzalandığı şərait artıq yoxdur. Hazırda dünya düzəni iki il yeddi ay əvvəlki deyil, geosiyasi dinamika da köklü şəkildə dəyişib. Həm Cənubi Qafqazda, həm Ukraynada, həm də bütövlükdə bölgədə müxtəlif hadisələr baş verib. Yəni, üçtərəfli Bəyanat müasir tələblərə cavab vermir. Onu bir daha nəzərdən keçirsək görərik ki, biz Kəlbəcəri, Laçını çoxdan geri almışıq. Həmçinin danışıqlar prosesində sərhədin demarkasiya və delimitasiyası kimi ayrıca məsələ var. Eləcə də nəqliyyat kommunikasiyalarına toxunan digər vektor vurğulanmalıdır. Bütün tələbləri təmin etməkdən ötrü bu məqamlar üzrə daha detallı müqavilənin imzalanmasına ehtiyac duyulur".***

Politoloq məhz belə bir sənədin xarici işlər nazirləri səviyyəsində imzalana biləcəsiyini istisna etmir:

**"Açığını desək, əgər bu, bəyanat, yaxud kommunikasiyalara, delimitasiya və demarkasiyaya dair sənədin hansısa fraqmenti formasında olacaqsa, deməli rəsmi şəxslər kimi diplomatlar da onun imzalanmasına birbaşa məsuliyyət daşıyacaqlar".**

ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin vasitəçiliyi ilə sülh danışıqlarının Vaşinqton formatının ikinci raundundan gözləntilər az deyil. Birləşmiş Ştatların bu yöndəki səylərinə Avropa İttifaqının Brüssel masasında dövlət başçılarının iyulun 21-nə planlaşdırılan növbəti görüşünə hazırlıq mərhələsi kimi də baxmaq olar. Hər halda, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın Azərbaycana səfəri də prosesin davamlılığını təsdiqləyir. Cənab Klaarın rəsmi Bakı ilə normallaşma və sülh yolunda müzakirələr aparacağı şübhəsizdir.

### İrəvan konkret addımlar atmalıdır

Ayrı-ayrı dövlətlərin, nüfuzlu təşkilatların təşəbbüsü ilə Bakı və İrəvan arasında görüşlərin intensivliyi artsa da, tərəflər bir çox məsələlər üzrə ortaq məxrəcə yaxınlaşsalar da, hələlik imzalanmış konkret sənəd yoxdur. Beş gün sonra Birləşmiş Ştatların paytaxtında baş tutacaq ikinci görüş Qərbin sülh təşəbbüsünün davamı kimi qəbul olunur. Bu baxımdan, Vaşinqtonda irəliyə doğru addımın atıla biləcəyinə inamını ifadə edən **politoloq Fikrət Sadıxov,** ümumiyyətlə, danışıqlar prosesinin əməldə, konkret sənədlərin qəbulunda əks olunması məqamının yetişdiyini bildirir:





**"Vaşinqton, Brüssel və Kişineuda Qərbin, Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşlərdə müəyyən razılaşmalar əldə edilib. Bu mənada, nəqliyyat kommunikasiyaları ilə bağlı məsələni xüsusi qeyd etmək lazımdır. Elə təəssürat yaranır ki, qarşıdakı Vaşinqton görüşündə irəliyə doğru addım atıla bilər. Yəni, Azərbaycanın maraqlarına cavab verən addımı nəzərdə tuturuq. Əlbəttə ki, bu, Ermənistanın yenə də müəyyən əngəlləri yaratmayacağı təqdirdə mümkündür. Bir var İrəvan hansısa məsələdə razılaşır, bir də var onun real həyata keçirilməsi yolları. Hələlik Ermənistanın gerçək siyasi addımlarını hiss etmirik. Eyni zamanda, bu da bir həqiqətdir ki, Qarabağda hələ də on minə yaxın silahlı erməni dəstəsi qalır. Bu dəstə mütləq ərazini tərk etməlidir. Bütün bu məsələlər öz həllini taparsa, güman edirik ki, sülh sazişi imzalana bilər. Amma, bir daha deyirik, yekun müqavilə yalnız yuxarıdakı şərtlər yerinə yetirildikdə mümkün olacaq".**

Mayın əvvəlində ABŞ-ın Virciniya ştatının Arlinqton şəhərində Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında dörd gün davam etmiş danışıqların ardından 14 may Brüssel formatı Bakı üçün uğulu hesab oluna bilər. Tərəflərin bu dəfəki Vaşinqton təmaslarının neçə gün çəkəcəyini proqnozlaşdırmaq çətin olsa da, bu formatın Azərbaycanın maraqlarına cavab verdiyi şəksizdir. Sülh dialoqunun geridə qalmış mərhələsini, eləcə də irəlidəki raundlarını üzvi şəkildə nəzərdən keçirsək, sonda belə qənaətə gəlmək mümkündür ki, danışıqlar özünün ən intensiv, eyni zamanda həlledici mərhələsinə qədəm qoyub.

Bizim üçün artıq fərqi yoxdur. Hansı məkanda, hansı formatda təşkil edilməsindən asılı olmayaraq, Bakı bölgəyə çoxdan gözlənilən sülhü və sabitliyi gətirəcək vasitəçinin yanında olacaq. Sülh danışıqlarının final raundunun sonuncu və ədalətli zəngi isə dünyanın hər tərəfində eşidiləcək.

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

# Xəritələr: dövrün və şəraitin korrektələri

## *Qriqoryanın tezisi hayların özləri tərəfindən inkar edilir*

**Ermənistan hakimiyyəti bir müddətdir ki, Azərbaycanla sərhədlərin delimitasiya prosesində Rusiya Silahlı Qüvvələrinin Baş Qərargahının arxivində saxlanılan 1975-ci il xəritəsinin əsas götürüləcəyi barədə təbliğat aparır. Bu fikir müxtəlif rəsmi şəxslər, əsasən də təhlükəsizlik şurasının katibi Armen Qriqoryan və xarici işlər naziri Ararat Mirzoyan tərəfindən səsləndirilir. Onlar 1975-ci il xəritəsinin Ermənistanın maraqlarına uyğun olduğunu vurğulayırlar. Sonuncu dəfə iyunun 4-də ölkəsinin İctimai Televiziyasına müsahibə zamanı A.Qriqoryan delimitasiya prosesində həmin xəritəyə xüsusi istinad edilməsinin vacibliyini deyib.**

### XİN erməni yalanını ifşa etdi

Azərbaycan Xarici İşlər Nazirliyi iyunun 5-də A.Qriqoryanın müsahibə zamanı səsləndirdiyi iddialara münasibət bildirib. Nazirlik qeyd edib ki, onun növbəti dəfə bir sıra istiqamətlərdə məsələlərin mahiyyətini təhrif etməsi, Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən yayınmaqla, həm beynəlxalq ictimaiyyətdə, həm də bu ölkənin cəmiyyətində çaşqınlıq yaratmaq cəhdləri qəbuledilməzdir: "Delimitasiya prosesinin hansı əsasda aparılması iddiası ilə bağlı qeyd etmək lazımdır ki, həm Praqa, həm də Soçi görüşü üzrə bəyanatlara əsasən delimitasiyanın ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı tanınması əsasında həyata keçirilməsi nəzərdə tutulub. Ümumiyyətlə, bu bəyanatlarda BMT nizamnaməsinə və Alma-Ata Bəyannaməsinə istinad qeyd edilən prinsiplər kontekstində verilib. Bu və digər bir görüşdə delimitasiyanın hansısa xəritə əsasında həyata keçirilməsi barədə hər hansı bir razılıq olmadığı Ermənistan tərəfinə yaxşı məlumdur".

XİN bildirib ki, beynəlxalq təcrübəyə əsasən, Ermənistandan fərqli olaraq Azərbaycanın indiyə qədər bəzi qonşuları ilə həyata keçirdiyi delimitasiya prosesi xüsusi seçilmiş xəritə əsasında deyil, bütün hüquqi əhəmiyyəti olan sənədlərin təhlili və nəzərdən keçirilməsi əsasında baş tutub: "Bu təcrübənin Ermənistanla da tətbiq edilməsi mümkündür. Bu xüsusda, Ermənistan tərəfinin 1975-ci il xəritəsinə xüsusi istinad edilməsini təkid etməsi əvəzinə, delimitasiya işinə başlaması daha faydalı olardı. 2020-ci il Vətən müharibəsindən sonra ölkəmizin Ermənistanla sərhədlərin delimitasiya olunması təklifinə uzun müddət heç bir cavab verməyən tərəfin də məhz Ermənistan olduğu unudulmamalıdır".

Nazirlik bu açıqlama ilə sərhədlərin delimitasiyası prosesində, guya 1975-ci il xəritəsinin əsas götürüləcəyi haqda rəsmi İrəvanın apardığı təbliğatın və bundan irəli gələn iddiaların yalan olduğunu ortaya qoymuş oldu.

Rəsmi Bakının mövqeyi Ermənistan rəsmilərini təkzib verməyə məcbur edib, ardınca isə hayların media qurumları və




siyasi ekspertləri digər "münasib variantlar" üzərində şərhlərə başlayıblar. Hazırda daha əvvəlki dövrün xəritələri ilə bağlı fikirlər səsləndirilməkdədir.

### Argişti Kiviryan: "Bakı Azərbaycan Xalq Cümhuriyyətinin ərazisinə iddia edə bilər"

2021-ci ilin iyunun 20-də keçirilmiş növbədənkənar parlament seçkisində iştirak məqsədilə Robert Koçaryanın qurub yaratdığı "Hayastan" blokundan deputat seçilmiş və 2022-ci ilin noyabrınadək Ermənistan parlamentinin deputatı olmuş, sonra isə mandatdan imtina etmiş politoloq Artur Kazinyan bu məsələdə bir qədər də irəli, daha doğrusu, uzaq tarixə gedib. O, delimitasiya prosesində 1926-cı il xəritələrinin əsas götürülməsinin vacibliyi fikrini irəli sürüb. İddia edib ki, Azərbaycan və Ermənistan sərhədləri SSRİ tərkibində ilk dəfə 1926-cı ildə ayrılıb, sonrakı dəyişikliklər isə "formal xarakter" daşıyıb.

Bu fikir ermənilərin özləri arasında belə tərəddüdlə qarşılanıb. Çünki "1926-cı il xəritəsi" deyilən bir anlayış yoxdur. 1920–1929-cu illərdə ermənilər Azərbaycandan əlavə torpaqlar qoparmağa çalışıblar ki, bunlardan biri də 1926-ci ilə təsadüf edib. Amma SSRİ zamanı ilk razılaşdırılmış xəritə 1929-cu ildə olub. O ki qaldı Kazinyanın dediyi kimi, hər iki respublikanın SSRİ-yə daxil olmasına qədər olan ərazilərinə, bununla bağlı elə erməni politoloqlar özləri narahatlıqlarını ifadə ediblər. Məsələn, politoloq Argişti Kiviryan bildirib ki, Azərbaycan Respublikası Azərbaycan SSR-in deyil, 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 20-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi, siyasi və mənəvi varisidir. Belə olduğu üçün müasir Azərbaycan Respublikası varisi olduğu respublikanın ərazisinə iddia etmək hüququ əldə edir. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin yanvarın 11-də Birinci Dünya müharibəsinin yekunları ilə bağlı keçirilmiş Versal sülh konfransının Ali Şurasında Böyük Britaniyanın xarici işlər naziri Corc Kerzonun təklifi ilə de-fakto tanınıb. Kiviryan bildirib ki, bunu əsas götürərək, Azərbaycan Zəngəzura və Göyçə gölünün yarısına iddiasını beynəlxalq müstəviyə qaldıra bilər.

### Dilicanın qubernatoru: "Anklavlar mövzusu 2018-ci ildən sonra yaranmayıb"

Bu arada Ermənistanın Azərbaycanla həmsərhəd, anklav kəndlərimizin yerləşdiyi Dilican (Tavuş) vilayətinin (ermənilər "marz" deyir-S.H.) qubernatoru Ayk Qalumyan bildirib ki, son dövrlərdə vilayətin sərhədlərində heç bir dəyişiklik baş verməyib. Parlamentdə jurnalistlərə açıqlama verən qubernator onu da deyib ki, insanlar gündəlik həyatlarını yaşayırlar və bunda heç bir problem görmür. Qubernator əlavə edib ki, hazırda anklavlarla bağlı hansısa danışıq aparılmır, olanda bu barədə cəmiyyətə məlumat veriləcək: "Azərbaycanın nəzarətində bizim ərazilərimiz olduğu kimi (?), onların da həm Tavuş vilayətində, həm də Ermənistanın digər yerlərində nəzarət etdikləri ərazilər var. Məsələ həll olunacaq. Baş nazir dəfələrlə vurğulayıb və izah edib ki, bu, delimitasiya və demarkasiya prosesində həllini tapacaq".

Qalumyan konkret kəndlərin adlarını sadalaya bilməyəcəyini diqqətə çatdırıb. Sadəcə onu bildirib ki, İcevan rayonunun Berkaber kəndinin, təxminən, 950 hektar ərazisi Azərbaycanın nəzarəti altındadır (?). O, anklavlar mövzusunun həmişə olduğunu, 2018-ci ilin "məxməri inqilabı"ndan sonra yarandığını vurğulayıb: "Azərbaycanlıların da bizim kimi problemləri var, masa arxasına əyləşib məsələləri həll etməliyik. Hələlik konkret müzakirə aparılmayıb".

### Erməni mütəxəssis də Qriqoryana qarşı çıxdı: "Xəritə dövlət üçün sənəd rolunu oynaya bilməz"

Geodezist-kartoqraf Şahen Şahinyanın "Panorama.am" saytına müsahibə zamanı səsləndirdiyi fikirlər də Armen Qriqoryanın irəli sürdüyü 1975-ci il xəritəsi tezisinə anti-tezis kimi qiymətləndirilə bilər. O bildirib ki, xəritə özlüyündə dövlət üçün ayrıca sənəd rolunu oynaya bilməz. O, sənəd olması üçün tam informasiya daşıyıcısı, bütöv məlumat bazası deyil: "Fotoşəkilli xəritə çox az informasiya daşıyır, xəritənin arxasında və ya ona əlavə edilmiş sənədlərdə hansı məlumatların olması çox vacibdir. Dövlət sərhədi sənədlərində xəritə həmişə əsas sənəd üçün əlavə, köməkçi material kimi çıxış edir. Xəritələr qəti sərhəd sənədləri deyil, onlar əsas sənədlərə əlavə olunan köməkçi materiallardır. Paşinyanın bir müddət öncə mətbuat konfransında dediyi fikirlərə gəldikdə isə birinci dəfədir ki, dövlətin kadastr şəhadətnaməsinin ola biləcəyini eşidirəm. Güman edirəm ki, bu, sülh müqaviləsi adlanan mürəkkəb sənədi çox primitiv səviyyəyə endirmək cəhdidir, lakin bu, ən azı mənim fikrimcə, çox mənfi nəticələrlə doludur. Əgər kadastr sənədindən danışırıqsa, beynəlxalq hüquq sahəsində bu sənədi verən səlahiyyətli orqanın kim olduğunu başa düşməliyik. Yəni, dünyada elə bir qurum varmı ki, dövlətin varlığını, onun müəyyən yerdə mövcudluğunu şübhə altına alsın? Əgər bizdə kadastr şəhadətnaməsi deyilən şey yoxdursa, o zaman dövlətimizin mövcudluğu və ya hüquqi qüvvəsi sual altındadır, bu absurd janr qəbuledilməzdir. Kadastr şəhadətnaməsi termini dövlətlərarası münasibətlərdə tətbiq olunmur".

Şahen Şahinyan deyib ki, xəritənin hüquqi əsası və bu xəritədə əks olunan sərhədi müdafiə etmək üçün dövlətin gücü olmalıdır: "Hüquqi nöqteyi-nəzərdən 1926–1932-ci illərin xəritələrində və hətta birinci respublikanın sərhədlərində güclü mövqelərimiz (?) var. Amma indi demarkasiya prosesini keçmiş Sovet İttifaqının inzibati-ərazi sərhədləri baxımından nəzərdən keçirsək, o zaman, fikrimcə, 1926–1932-ci illərin xəritələri hüquqi qüvvəyə malik olmalı, prosesə uyğun aparılmalıdır".

O, həmçinin qeyd edib ki, 1991-ci ilin xəritəsi mövcud deyil: "1991-ci ildə Sovet İttifaqında xəritə nəşr etməyi dayandırmışdılar. Müstəqil Ermənistan Respublikasının xəritələri isə daxili xarakter daşıyır, Azərbaycanla sərhədyanı danışıqlar aparılmadığından, bu xəritələr yenilənməyib. Təhlillərimiz göstərir ki, dövlət qurumları 1991-ci ilin xəritələrindən danışanda söhbət 1991-ci ilin de-fakto vəziyyətindən, yəni o vaxt Ermənistan və Azərbaycan qoşunları harada idilərsə, sərhədi bu faktın müəyyən etməli olduğunu nəzərdə tuturlar. "1991-ci ilin xəritəsi" ifadəsindən biz ancaq de-fakto vəziyyəti başa düşə bilərik, o vaxt təsdiqlənmiş dövlətlərarası xəritə yox idi".

*Səxavət HƏMİD, "Xalq qəzeti"*

*Ekspert rəyi*



**Yeganə HACIYEVA,**
**politoloq**

– Mövcud beynəlxalq münasibətlər sistemində və Azərbaycanla Ermənistanın üzvü olduğu beynəlxalq təşkilatlarda iki legitim əsas var. Bunlardan biri Alma-Ata Bəyannaməsi, digəri BMT Nizamnaməsidir. BMT üzvü olarkən müəyyən olunan sərhədlərimiz məhz Alma-Ata Bəyannaməsi əsasında qəbul olunub. Bu, hüquqi baxımdan legitim sayılsa da, tarixi ədaləti əks etdirmir. Amma biz məsələyə beynəlxalq hüququn nəyi tanıması prizmasından yanaşırıq. Əgər Ermənistan xəritələri, mövcud sərhədləri mübahisələndirirsə, burada da haqlı olan tərəf İrəvan deyil, Bakıdır. Çünki tarixi ədalət o zaman bərpa olunardı ki, biz SSRİ-yə daxil olduğumuz ərazi ilə ittifaqdan çıxardıq.

Digər tərəfdən, nəzərə almaq lazımdır ki, Armen Qriqoryan və Ararat Mirzoyan Ermənistan hakimiyyəti daxilində müxtəlif qrupların təmsilçiləridir. Paşinyan bu qruplar arasında yaranmış balans üzərində hakimiyyətdədir. Baş nazirin daxildəki siyasi qruplar üzərində nüfuzu çox da yüksək deyil. Onun istər qərarları, istərsə də səsləndirdiyi fikirlər mübahisələndirilir. Ancaq bu, prosesin Paşinyandan xəbərsiz getdiyi anlamına da gəlməməlidir. Burada bir koordinasiyalı oyun var. Əgər proseslər sabotajla "o xəritə sənin, bu xəritə mənim" müstəvisinə çəkiləcəksə, bu ritorika İrəvanın xeyrinə nəticələnməyəcək. Buradan uduşlu çıxan ölkəmiz olacaq.

Qriqoryan tərəfindən 1975-ci il xəritəsinin qabardılmasını işğal altındakı 8 kəndin boşaldılması prosesinə diriniş kimi qəbul etmək lazımdır. Ancaq Qriqoryan anlamalıdır ki, bu kəndlərin boşaldılması zaman məsələsidir. Qriqoryanın, yaxud Mirzoyanın nə deməsi heç nəyi dəyişmir.

# Heydər Əliyev və müstəqil dövlətin humanist cəza-icra sistemi



**Müasir Azərbaycan dövlətinin memarı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı dövlət quruculuğunun butun sahələrində həyata keçirilmiş köklü islahatların təşəbbüskarı və təşkilatçısı kimi çağdaş tariximizə qızıl hərflərlə yazılmışdır.**

Müstəqilliyimizin ilk illərində dövlətin taleyüklü problemlərinin həlli ilə əlaqədar görülən genişmiqyaslı tədbirlərlə, habelə ölkədə qanunçuluğun möhkəmləndirilməsi ilə yanaşı, cəza siyasətinin humanistləşdirilməsi məsələsinə xüsusi diqqət ayrılması, yeni və müasir hüquq təsisatlarının yaradılması, cəmiyyətdə mərhəmətin zirvəsi kimi qəbul olunan əfv və amnistiya institutlarının yeni məzmunda, yəni humanistlik, insanpərvərlik, ədalət prinsiplərinə əsaslanmaqla tətbiqinə başlanması və onların daimi xarakter alması, Şərqdə ilk olaraq olüm cəzasının ləğv edilməsi birmənalı olaraq ümummilli liderin adı ilə bağlıdır.

Müstəqil Azərbaycan Respublikasında digər hüquqi təsisatlarla yanaşı, cəza-icra sisteminin, yəni cəzaların icrasını həyata keçirən müəssisə və orqanların işinin yenidən təşkili, bu vacib sahədə uzunmüddətli inkisaf strategiyasının müəyyən edilməsi, aparılmış köklü islahatlar, onların müsbət nəticələri, əldə olunmuş uğurlar, ilk növbədə, Heydər Əliyevin müstəsna xidmətlərinin bəhrəsi kimi qəbul edilir.

Ümummilli lider digər sahələrdə olduğu kimi cəza-icra sisteminin islahatına da, ilkin olaraq müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsi və humanistləşdirilməsi ilə start verilməsini məqsədəuyğun hesab etmişdir. Bu məqsədlə Heydər Əliyev müəllifi olduğu Azərbaycan Respublikasının yeni Konstitusiyasının müddəalarına, habelə insan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş beynəlxalq aktlar nəzərə alınmaqla hazırlanmış və Milli Məclis tərəfindən 7 fevral 1997-ci il tarixdə qəbul olunmuş "Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu, habelə onun tətbiqi barədə 26 fevral 1997-ci il tarixli Fərman imzalamışdır.

İslah-Əmək Məcəlləsinə edilmiş əsaslı dəyişikliklərə baxmayaraq, ümummilli lider cəzaların icrasını tənzimləyən yeni, müasir və vahid qanunun hazırlanmasını daha məqsədəuygun hesab edərək, aidiyyəti üzrə tapşırıq vermişdir. Mövcud qabaqcıl təcrubəyə, cəza çəkən şəxslərlə davranışla bağlı beynəlxalq standartlara əsaslanmaqla hazırlanmış Cəzaların İcrası Məcəlləsi 14 iyul 2000-ci ildə qəbul edilmiş, Heydər Əliyev tərəfindən imzalanaraq və həmin ilin 1 sentyabrından qüvvəyə minmişdir.

Ümummilli lider cəza-icra qanunvericiliyinin təkmilləşdirilməsi ilə yanası, istintaq təcridxanalarında və islah-əmək müəssisələrində qanunçuluğun möhkəmləndirilməsi, cəzaların icrası qaydalarının təmin edilməsi və bu sahədə hüquqi islahatlar ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsini vacib hesab edərək, 11 fevral 1999-cu il tarixli fərman imzalamışdır. Həmin sənəddə müstəqillik illərində müvafiq müəssisələrdə görulmuş işlərə, əldə olunmuş bir sıra müsbət nəticələrə toxunulmaqla, fəaliyyətdə olan noqsanlar, mövcud problemlər göstərilmiş və zəruri tədbirlərin görülməsi məqsədəuyğun hesab edilmişdir.

Qeyd olunan proqramın icra prosesində olmasına baxmayaraq, Heydər Əliyev ölkədə hüquqi islahatları davam etdirmək, islah-əmək müəssisələrində və istintaq təcridxanalarında saxlanılma şəraitinin və tibbi xidmətin yaxşılaşdırılması məqsədilə qanunvericilik, təşkilati və digər əlavə tədbirlərin həyata keçirilməsi üçün 9 oktyabr 1999-cu il tarixli fərman imzalamışdir.

Ümummilli lider Azərbaycan Respublikasında vahid islah-əmək siyasətinin həyata keçirilməsi və istintaq təcridxanalarının fəaliyyətinin Avropa Şurasının standartlarına uyğunlaşdırılması, azadlıqdan məhrumetmə bağlı cəzanın və prosessual məcburiyyət tədbirinin icrasının bir mərkəzdən idarə edilməsi məqsədilə 9 oktyabr 1999-cu il tarixli digər Fərman imzalamış, Daxili İşlər Nazirliyinin istintaq təcridxanalarının bütün ştat vahidləri və balanslarında olan əmlakla birlikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin tərkibinə verilməsi ilə bağlı qərar qəbul etmişdir. Heydər Əliyevin bu addımı istintaq təcridxanalarının fəaliyyətinin təkmilləşdirilməsinə təkan vermiş, sonradan ölkədə bu növlü yeni və müasir müəssisələrin inşası həyata keçirilmiş, onların fəaliyyətini nizamlayan mütərəqqi qanun qəbul olunmuşdur.

Ulu öndər məhkəmə qərarlarının icrasının daha səmərəli təşkili, habelə cəzaların icrası sisteminin fəaliyyətinin təkmilləşdirilməsi, onun işinə effektiv nəzarətin həyata keçirilməsinin təmini məqsədilə qəbul edilmiş 28 dekabr 1999-cu il tarixli "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında" Qanunu, habelə onun tətbiq edilməsi barədə 5 yanvar 2000-ci il tarixli Fərman imzalamışdır.

Ümummilli lider cəza-icra sisteminin fəaliyyəti ilə bilavasitə əlaqədar olan normativ aktlardan əlavə, bir sıra digər, o cümlədən, insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı imzaladığı sənədlərdə də, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması və cəza çəkənlərin beynəlxalq tələblərə uyğun saxlanması üçün tədbirlərin görülməsini zəruri hesab etmişdir. Qeyd olunanlara 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində tədbirlər haqqında" Fərmanı, habelə dövlət başçısının 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı misal göstərmək olar.

Heydər Əliyevin tapşırığı ilə müstəqil Azərbaycan Respublikasının dunya dövlətləri birliyinə inteqrasiyası, beynəlxalq təşkilatlarla əməkdaşlığa başlaması prosesində cəzaların icrası, həbs edimiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının müdafiəsi sahəsinə də xüsusi əhəmiyyət verilmiş, Avropa Şurası, ATƏT, BQXK və digər beynəlxalq strukturlarla səmərəli əməkdaşlıq əlaqələri qurulmuş, mövcud qabaqcıl təcrübənin öyrənilməsinə başlanmışdır.

Əsası umummilli lider tərəfindən qoyulmuş, dövlətimizin cəza-icra sistemindəki islahatlar müasir dövrün tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Azərbaycan Respublikasının cəza-icra sistemindəki köklü islahatlar, onların ictimaiyyət, beynəlxalq təşkilatlar tərəfindən də qeyd olunan müsbət nəticələri, ilkin olaraq Heydər Əliyevin bu sahədəki uğurlu siyasətinin, onun xüsusi diqqətinin və gərgin əməyinin nəticəsidir. Aparılan islahaların davamı məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 10 fevral 2017-ci il tarixdə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prossesual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzalamışdır.

Əminik ki, ölkəmizin cəza-icra sisteminin fəaliyyətinin beynəlxalq standartlara uyğun olaraq təmin edilməsi, bir çox sahələrdə olduğu kimi digər dövlətlərə nümunə göstərilməsi məqsədilə aidiyyəti strukturlar, xüsusilə Ədliyyə Nazirliyi ümummilli liderin müvafiq sahədə miras qoyduğu siyasətə, dəyərli fikirlərinə dəfələrlə müraciət edəcək, onun nəsillərə əmanət etdiyi zəngin irsindən kifayət qədər bəhrələnəcəkdir.

***Musa HÜMBƏTOV,***
***Fəxri ədliyyə işçisi***

# "Heydər Əliyevin dövlətçilik siyasəti və müasirlik"



**AMEA Naxçıvan Bölməsində "Heydər Əliyevin dövlətçilik siyasəti və müasirlik" mövzusunda elmi konfrans keçirilib.**

AMEA Rəyasət Heyəti ilə və birgə təşkil edilən elmi məclisi giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev Ümummilli liderin ölkəyə rəhbərliyinin hər iki dövründə həyatın bütün sahələrində qeydə alınan inkişafdan danışaraq bildirib ki, birinci dövrdə Azərbaycan geridə qalmış aqrar ölkədən inkişaf etmiş sənaye ölkəsinə çevrilmiş, ikinci mərhələ isə ölkəmizin çətin ictimai-siyasi dövrünə təsadüf etmişdir. Dünya miqyaslı siyasət və dövlət xadimi Heydər Əliyev müstəqilliyin ilk dövründə vətəndaş müharibəsi və parçalanmaq təhlükəsi qarşısında qalan Azərbaycanı bu təhlükədən xilas etmiş, adını tariximizə əsl xilaskar kimi həkk etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli konfransda "Heydər Əliyevin müstəqil dövlətçilik təlimi və müasir dövr" mövzusunda məruzə edib. Akademik bildirib ki, Heydər Əliyev dünyanın ən görkəmli siyasi liderləri arasında özünəməxsus yeri olan, dünya səviyyəli siyasi liderdir. AMEA-da ardıcıl olaraq Heydər Əliyevin 100 illiyinə həsr olunmuş elmi konfransların, tədbirlərin keçirildiyini diqqətə çatdıran akademik qeyd edib ki, bu proses ulu öndərin nadir şəxsiyyətinin, mənalı həyatının və zəngin siyasi irsinin elmi əsaslarla tədqiq olunaraq araşdırılması məqsədi daşıyır.

Konfrans zamanı AMEA-da "Heydər Əliyev İli" çərçivəsində nəşr olunan çoxsaylı kitablar, elmi əsərlər iştirakçıların diqqətinə çatdırılıb.

***"Xalq qəzeti"***

# "Əziz Şuşa" beynəlxalq velosiped yarışına start verildi

**Dünən ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Əziz Şuşa" beynəlxalq velosiped yarışı ilə bağlı mətbuat konfransı keçirilib.**



Tədbirdə "Əziz Şuşa" beynəlxalq velosiped yarışının direktoru Ronald Hofer, yarışın marşrut üzrə direktoru Elçin Qəhrəmanov, Gənclər və İdman Nazirliyinin baş məsləhətçisi Ülviyyə Hacıyeva, Azərbaycan Velosiped Federasiyasının baş katibi Elnarə Musayeva, yarısın təhlükəsizlik üzrə meneceri, Azərbaycan Velosiped Federasiyasının İcraiyyə Komitəsinin üzvü Vüqar Salahov iştirak ediblər.

Azərbaycan Velosiped Federasiyasının baş katibi Elnarə Musayeva "Əziz Şuşa" beynəlxalq velosiped yarışının Beynəlxalq Velosipedçilər İttifaqının müəyyənləşdirdiyi təqvim planına daxil edilən 2.2 kateqoriyalı 5 mərhələli turnir olduğunu bildirərək deyib ki, 14 ölkədən 16 komanda iştirak edəcək. Onlar artıq Bakıdadır.

Yarışın direktoru Ronald Hofer turnirin böyük tədbir olduğunu qeyd edərək, yüksək təşkilatçılığa görə Azərbaycan Velosiped Federasiyasına təşəkkürünü bildirib.

Xatırladırıq ki, "Əziz Şuşa" beynəlxalq velosiped yarışı iyunun 7-dən 11-dək keçiriləcək.

***"Xalq qəzeti"***

# Bakıda seysmologiyanın inkişafı məsələləri müzakirə olunur

**Dünən Bakıda ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Seysmologiya və mühəndis seysmologiyası" üzrə VII Beynəlxalq konfrans işə başlayıb.**



AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Azərbaycanda seysmologiya xidmətinin əsaslarının ulu öndər tərəfindən yaradıldığını, onun göstərdiyi dəstək sayəsində inkişaf etdiyini vurğulayıb.

Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurasının rəhbəri, professor Hasan Mandal təbii fəlakətlərin başvermə tezliyinin getdikcə artacağını, ölkələrin onun nəticələrini aradan qaldırmaqda çətinliklə üzləşəcəyini diqqətə çatdırıb.

Fövqəladə hallar nazirinin müavini, general-leytenant Etibar Mirzəyev zəlzələlərin öncədən proqnozlaşdırıla bilinmədiyini, lakin onun acı nəticələrinin qarşısını almağın mümkün olduğunu deyib.

Konfransda, həmçinin Böyük Britaniyalı seysmoloq Yan Pirs, ABŞ-dan Erik Sandvol, Gürcüstandan Tea Godoladze və Rusiyadan gəlmiş Boris Trifonov çıxış edərək mövzuların seysmologiya elminin inkişafına töhfə verəcəyini bildiriblər.

***"Xalq qəzeti"***

# Bişkekdə ulu öndərin 100 illiyinə həsr olunan konfrans



**Qırğızıstanın paytaxtı Bişkek şəhərində ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konfrans keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "Mərkəzi Asiyada Mütərəqqi Azərbaycanlılar Birliyi"nin təşkilatçılığı ilə baş tutan tədbirdə Qırğızıstan Xalqlar Assambleyasının, yerli hökumətin və ictimaiyyətin, türk, qazax, özbək, uyğur, tacik, çeçen diasporlarının nümayəndələri, Qırğızıstan və Qazaxıstanda yaşayan soydaşlarımız iştirak ediblər.

Birliyin sədri Xansıvar Baxşəliyev, Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov, Qırğızıstan Xalqlar Assambleyasının sədri Almanbet Matubraimov, Qırğızıstan Mədəniyyət, İnformasiya və Gənclər Siyasəti Nazirliyinin millətlərarası münasibətlər idarəsinin rəisi İskəndər Eşimbekov, Qırğızıstan parlamentinin eks-spikeri, professor Zaynidin Kurmanov və başqaları ulu öndər Heydər Əliyevin ölkəmizin müstəqilliyinin əldə olunması, möhkəmləndirilməsi, dinamik inkişafı naminə həyata keçirdiyi misilsiz və əvəzsiz xidmətləri diqqətə çatdırıblar, onunla bağlı xatirələrini bölüşüblər.

# Milli Məclisin növbədənkənar sessiyasının ilk plenar iclası keçirildi



**İyunun 6-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2023-cü il növbədənkənar sessiyasının ilk iclası keçirildi. Parlamentin Sədri növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Sonra gündəliyə 14 məsələnin daxil edildiyi bildirildi.**

S. Qafarova dedi ki, bu gün Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən biridir. Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu inkişaf strategiyası ötən 5 ayda makroiqtisadi sabitliyi və maliyyə dayanıqlığını daha da möhkəmləndirməyə, iqtisadi inkişaf sahəsində dövlət siyasətinin prioritetlərini və məqsədlərini əldə etməyə imkan yaratmışdır: “İqtisadi göstəricilərin artımı nəzərdə tutulan hədəflərin əldə edilməsi, o cümlədən işğaldan azad olunmuş bölgələrdə bərpa-quruculuq işlərinin sürətləndirilməsi, müdafiə və təhlükəsizlik vəzifələrinin yerinə yetirilməsi məqsədi ilə bu ilin dövlət büdcəsi haqqında qanunda və büdcə zərfinə daxil olan digər 2 qanunda dəyişiklik edilməsinə imkan yaratmışdır. Bununla əlaqədar olaraq, möhtərəm Prezidentimiz müvafiq qanun layihələrini qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim etmişdir və gündəliyin ilk üç məsələsi məhz bu qanun layihələridir.

Gündəliyin birinci məsələsi – “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdi. Qeyd etdi ki, sənəd Prezident İlham Əliyev tərəfindən Milli Məclisə təqdim olunub. O diqqətə çatdırdı ki, “Büdcə sistemi haqqında Qanunun” 23.7-ci maddəsinə əsasən, dövlət büdcəsinə yenidən baxılarkən, onun gəlir və xərcləri üzrə məbləğinin büdcə gəlirləri təsnifatının, büdcə xərclərinin funksional, iqtisadi və inzibati təsnifatlarının paraqrafları səviyyəsində dəyişdirilməsi nəzərdə tutularsa, qanunvericilik təşəbbüsü qaydasında və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndi nəzərə alınmaqla qanunda göstərilmiş 8 sənəd Milli Məclisə təqdim edilib.

T. Mirkişili bildirdi ki, 2023-cü ilin dövlət büdcəsi haqqında qanun layihəsi qəbul olunarkən, dövlət büdcəsi gəlirlərinin 30 774 milyon, xərclərinin 33 353.3 milyon, kəsirinin isə 2 579,3 milyon manat olacağı planlaşdırılıb. Eyni zamanda, 2023-cü ildə ÜDM-in real artım tempinin 2,7 faiz, qeyri-neft-qaz ÜDM-nin real artım tempinin 4,5 faiz, inflyasiyanın orta illik səviyyəsinin 6,9 faiz, olacağı proqnozlaşdırılıb. Dövlət büdcəsində hesablamalar neftin bir barelinin orta illik qiymətinin 50 ABŞ dolları səviyyəsinə uyğun həyata keçirilib.

Maliyyə naziri Samir Şərifov bildirdi ki, 2023-cü ilin dövlət büdcəsində Böyük Qayıdış Proqramında nəzərdə tutulan layihələrin icrası üçün 3 milyard manat vəsait təsdiq olunub. Artıq həmin vəsaitin 60 faizə yaxın hissəsi carin ilin ötən 5 ayı ərzində istifadə olunub. Diqqətə çatdırdı ki, Prezident İlham Əliyev cari ilin I rübünün fiskal, xüsusilə dövlət büdcəsinə daxilolmalar üzrə göstəricilərin müsbət dinamikasını, habelə 2023-cü il üzrə tərtib olunmuş sosial-iqtisadi inkişaf proqnozunun 2022-ci ilin faktiki icra göstəricilərinə nisbətən artıma doğru yenilənməsini nəzərə alaraq, büdcədə yaranmış əlavə gəlirlərin, ilk növbədə, Böyük Qayıdış Proqramı üzrə layihələrin maliyyələşdirilməsinə, ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsinə yönəldilməsi vəzifələrini müəyyən edib.

S.Şərifov çıxışında yenidən baxılmış 2023-cü ilin dövlət büdcəsinin əsas parametrləri ilə bağlı məlumat verdi: “Dövlət büdcəsinin təsdiq olunmuş bəzi xərclərinin optimallaşdırılması və yerdəyişməsi hesabına büdcə xərcləri daxilində 1 milyard 123 milyon manat məbləğində əlavə maliyyə təminatı yaradılıb. Cari ilin ilk 5 ayında Dövlət Neft Fondunun dövlət büdcəsinə transfert üzrə daxilolmalar nəzərə alınmadan dövlət büdcəsinin əlavə gəlirləri 2,6 milyard manat təşkil edib. Bu vəsaitin 50 faizi qeyri-neft sektoru hesabına, digər hissəsi isə neft sektorundan daxilolmalar hesabına təmin edilib. Bütövlükdə, qeyd olunan 4,3 milyard manat maliyyə resurslarının 2 milyard 260 milyon manatlıq hissəsi işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işlərinin aparılmasına yönəldilməklə, cari ildə Böyük Qayıdış Proqramı üçün ayrılan dövlət büdcəsinin vəsaiti 5 milyard 260 milyon manata yüksəldiləcək. Digər prioritet istiqamət olan ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyin daha da artırılması üçün əlavə ayrılacaq 1 milyard manat vəsait nəzərə alınmaqla, xüsusi müdafiə təyinatlı xərclərə yönəldilən vəsaitin ümumi məbləği 3 milyard 70 milyon manata çatdırılacaq. Bununla yanaşı, bir sıra digər istiqamətlər üzrə də əlavə xərclərə vəsaitin yönəldilməsi təklif olunur”.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev “Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) və “İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) barədə qanun layihələrini təqdim etdi.

Milli Məclisin Sədri 2023-cü ilin dövlət büdcəsinə dəyişikliklərlə bağlı təqdim olunan qanun layihələrinə dair Hesablama Palatası tərəfindən rəy verildiyini diqqətə çatdırdı. Sonra qanun layihələri ətrafında müzakirələr aparıldı.

Müzakirələrin sonunda 2023-cü ilin dövlət büdcəsinə dəyişikliklərlə bağlı təqdim olunan 3 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

S.Qafarova gündəliyin növbəti 5 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirdi. Bu qanun layihələri gündəlikdəki digərləri ilə bərabər müzakirə olunaraq müvafiq qərarb qəbul edildi.

***Ə.BƏDƏLOV,***
***“Xalq qəzeti”***

# Azərbaycan Qarabağın erməni sakinlərinin inteqrasiyasında qərarlıdır

**Dünən Xarici İşlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında iştirak etmək məqsədilə Avstriyaya işgüzar səfərə gəlib. Səfər çərçivəsində naziri ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxış edib.**




Nazir Ceyhun Bayramov bildirb ki, Azərbaycan Qarabağ bölgəsinin etnik erməni sakinlərinin bərabərhüquqlu vətəndaşlar kimi ölkəmizin siyasi, hüquqi, iqtisadi və sosial çərçivəsinə yenidən inteqrasiyasında qərarlıdır.

C.Bayramov sonra bildirib ki, Azərbaycan ATƏT də daxil olmaqla, müxtəlif platformalarda səmərəli çoxtərəfli əməkdaşlığın tərəfdarıdır. Ölkəmiz, eyni zamanda, ehtiyacları və prioritetləri əsasında ATƏT və onun təsisatları çərçivəsində əməkdaşlıqda maraqlıdır.

Nazir onu da vurğulayıb ki, Azərbaycan–Ermənistan normallaşma prosesi çərçivəsində ikitərəfli sülh sazişi mətni üzərində danışıqlar aparılır.

Nazir son bir neçə həftə ərzində Vaşinqtonda, Brüsseldə, Moskvada və Kişineuda keçirilən danışıqların tərəflərin mövqeyini daha yaxşı anlamağa imkan yaratdığını diqqətə çatdırıb.

Ceyhun Bayramov deyib ki, Azərbaycanı ikitərəfli müzakirələrin gündəliyini formalaşdıran üç konkret istiqamət üzrə fikir ayrılıqlarını aradan qaldırmaq üçün Ermənistan tərəfdən qarşılıqlı siyasi iradə gözləyir.

***

Bu gün Ceyhun Bayramovun Slovakiya Respublikasına işgüzar səfəri çərçivəsində isə Slovakiyanın xarici və Avropa işləri naziri Miroslav Vlaxovski, o cümlədən, Slovakiyanın digər yüksək səviyyəli rəsmiləri ilə görüşlərin keçirilməsi nəzərdə tutulur.

***Qəzənfər QASIMOV,***
***“Xalq qəzeti”***

# Hikmət Hacıyev İsrail rəsmiləri ilə görüşdü

**Azərbaycan Prezidentinin köməkçisi – Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrail Knessetinin Xarici İşlər və Müdafiə Komitəsinin sədri Yuli Edelşteyn və Knesset üzvü Ram Ben Barala görüşüb.**

Bu barədə İsrailin Azərbaycandakı səfiri Corc Dik “Twitter” hesabında paylaşım edib.

C.Dik görüşün səmimi və məhsuldar keçdiyini, ikitərəfli və regional məsələlərin müzakirə edildiyini vurğulayıb.

# AŞPA-nın həmməruzəçiləri Ədliyyə Nazirliyində

**Dünən Ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və xanım Liz Kristofersen ilə görüşüb.**



Nazir Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan kompleks qanunvericilik, institusional və praktiki tədbirlər barədə məlumat verib, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə fəaliyyətini, hakimlərin Avropa Şurası tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçimini qeyd edib.

Qonaqlar Azərbaycanda hüquqi sahədə islahatları və nailiyyətləri məmnunluqla qarşılayıb, məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması, korrupsiya ilə mübarizə, qarşıda duran çağırışlar və digər məsələlər üzrə faydalı fikir mübadiləsi aparıblar.

***“Xalq qəzeti”***

# Qədim Naxçıvanın yeni inkişaf hədəfləri

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 5 iyun 2023-cü il tarixli Sərəncam imzalayıb. Sənəddə regionlarımızın sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilən dövlət proqramlarının ölkəmizin bu ayrılmaz hissəsinin iqtisadiyyatının inkişafına, yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərdiyi xüsusi vurğulanıb.**



Dövlət Proqramının preambulasında bildirilir ki, Azərbaycan regionlarının, o cümlədən, Naxçıvan iqtisadi rayonunun inkişafı ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu strategiyanın reallaşmasında, eləcə də bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları xüsusi önəm daşıyır.

Ümummilli lider Heydər Əliyevin Naxçıvanda fəaliyyəti dövründə Ermənistan tərəfindən blokada şəraitində olan regionun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və tərəqqisi üçün əhəmiyyətli tədbirlər görülüb, aqrar islahatlar reallaşdırılıb, infrastrukturun inkişafı istiqamətində mühüm işlər həyata keçirilib. Məhz dahi şəxsiyyətin müdrik siyasəti sayəsində bölgənin tərəqqisinin davamlılığını gerçəkləşdirmək üçün regional və beynəlxalq əlaqələr qurulub, sonrakı dövr üçün ölkəmizin bütün regionları kimi, Naxçıvanın da sosial-iqtisadi inkişafında möhkəm bünövrə formalaşdırılıb.

Proqramın giriş hissəsində, eyni zamanda, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranan yeni reallıq Orta Dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə, Zəngəzur dəhlizinin açılmasını da zəruri edib və Naxçıvan Muxtar Respublikasının tranzit potensialını genişləndirib. Düşməndən təmizlənən ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəştlər, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin muxtar respublika ilə nəqliyyat əlaqələrinin qurulması perspektivi analoji güzəştlərin bu bölgədə də tətbiqinə əlverişli imkanlar yaradır.

Hazırda bu imkanlardan istifadə edərək Naxçıvanda iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin məşğulluğu, sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi ön plana çıxıb. Mövcud potensialdan daha səmərəli yararlanmaqla bölgədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və davamlılığının təmin edilməsi zəruridir. Bu isə, mütəmadi olaraq, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların hazırlanaraq icra olunmasını nəzərdə tutur.

Naxçıvan Muxtar Respublikasının mövcud vəziyyəti Dövlət Proqramında ətraflı təhlil edilərək, 2004-cü ildən başlanılan məqsədyönlü tədbirlər nəticəsində bölgədə görülən işlər infrastruktur layihələrinin həyata keçirilməsinə, bu coğrafiyada qazlaşdırmanın tam təmin edilməsinə, enerji təchizatının yaxşılaşdırılmasına, müasir yolların inşasına, sosial infrastruktur obyektlərinin tikintisinə, yeni müəssisələrin yaradılmasına, həmçinin iş yerlərinin açılmasına səbəb olub.

Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, sənayenin davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə Şərur Sənaye Məhəlləsi yaradılıb, investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, iqtisadiyyata sərmayə qoyuluşunun stimullaşdırılması üçün son 5 il ərzində 18 sahibkarlıq subyektinə 24 investisiya təşviqi sənədi verilib. İnvestisiya təşviqi sənədi çərçivəsində idxal olunan 77,9 milyon manat dəyərində avadanlığa gömrük və vergi güzəştləri tətbiq edilib.

Ötən dövrdə torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində tutumu 100 milyon kubmetr olan Heydər Əliyev su anbarı istifadəyə verilib. Elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində 169,8 meqavat gücündə 10 elektrik stansiyası işə salınıb.

Təbii qazla təchizat tam olaraq başa çatdırılıb, 27 kilometr uzunluğunda Naxçıvan–Şahbuz ortatəzyiqli və 82,2 kilometr uzunluğunda Naxçıvan–Sədərək yüksəktəzyiqli magistral qaz kəmərləri tikilib istifadəyə verilib. Naxçıvan şəhərinin və onun inzibati ərazisinə daxil olan yaşayış məntəqələrinin əhalisini içməli su və kanalizasiya xidməti ilə təmin etmək üçün gün ərzində 40 min kubmetr sutəmizləmə və 32 min kubmetr tullantı sutəmizləmə gücünə malik olan qurğular və ümumi tutumu 25 min kubmetr olan 3 su anbarı tikilib.

Həyata keçirilən genişmiqyaslı layihələr nəticəsində əldə olunan uğurlar bütün bunlarla kifayətlənmir. Rabitə və informasiya texnologiyalarının tətbiqi, ətraf mühitin mühafizəsi, sosial obyektlərin tikintisi, əhalinin rifahının yaxşılaşdırılması və digər sahələrdə müsbət nəticələrə nail olunub.

Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətlərin daha da möhkəmləndirilməsi, eləcə də regionun potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması üçün müasir çağırışlara əsaslanan bir sıra tədbirlərin həyata keçirilməsi də zəruri hesab olunur. Həmin tədbirlər “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”da öz ifadəsini tapıb.

Bu tarixi sənəddə bölgədə biznes mühitinin daha da yaxşılaşdırılması, dövlət xidmətlərinə əlçatanlığın artırılması, təbii ehtiyatlar (əlvan metallar) hesabına hasilat sənayesinin inkişafına nail olunması, elektrik enerjisinin istehsalı və ixracı üzrə mövcud potensialdan yararlanmaqla yeni bərpaolunan enerji (əsasən, günəş) stansiyalarının, həmçinin istilik elektrik stansiyalarının tikintisi mühüm prioritetlər kimi qəbul edilib. Bütün bunlarla bərabər muxtar respublikanın Türkiyənin qaz şəbəkəsi ilə əlaqələndirilməsi, xarici dövlətlərlə sərhəddə yerləşməsi nəzərə alınmaqla, bölgədəvergi və gömrük güzəştləri müəyyənləşdirilməklə rəqabətqabiliyyətli ticarətqovşağının yaradılması və s. layihələrin reallaşdırılması məsələləri də Dövlət Proqramında yer alıb.

***V.BAYRAMOV,***
***“Xalq qəzeti”***



# Taxıl biçininə hazırlıq başa çatıb

## Zəmilərə 2 minədək kombayn çıxarılacaq

**Son illər ölkəmizdə uğurla həyata keçirilən davamlı inkişaf strategiyasına uyğun olaraq kənd təsərrüfatının sürətli inkişafı məqsədilə çoxşaxəli dövlət dəstəyi sistemi qurulub, bu sahənin potensialının reallaşdırılmasına yönəldilən resursların həcmi artırılıb.**

Bununla bərabər, meliorasiya–irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi üçün dövlət büdcəsi vəsaitləri hesabına son 10 il ərzində 390 min hektardan çox sahədə torpaqların su təminatı yaxşılaşdırılıb, 188 min hektar sahə yeni suvarılan torpaqlar qrupuna əlavə edilib. Həmçinin suvarılan sahələrdə müvafiq dövlət dəstəyi sayəsində tətbiq olunan müasir suvarma sistemlərinin payı artıq 5 faizdən çox yüksəlib.

Həyata keçirilən layihələr nəticəsində ötən il ərzində respublikada kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 10 milyard 984,2 milyon manat təşkil edib ki, onun da 5 milyard 446,2 milyon manatı heyvandarlıq, 5 milyard 538 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb. Ölkə üzrə kənd təsərrüfatının istehsalı əvvəlki illə müqayisədə 3,4 faiz artıb.

Cari ilin yanvar-mart aylarında isə respublikada ümumi daxili məhsul (ÜDM) istehsalının 2,6 faizini kənd təsərrüfatı sahəsinin payına düşməsi, yanvar-fevral aylarında 895,6 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilməsi və həmin göstəricinin ötən ilin eyni dövrü ilə müqayisədə 3,3 faiz çox olması kənd təsərrüfatının inkişaf strategiyasın uğurla gerçəkləşdirilməsinin məntiqi nəticəsidir.

Aqrar sektorda inkişaf dinamikasını diqqətə çatdırmaq üçün, ilk növbədə, statistik göstəricilərə əsaslanaraq bildirək ki, bu il Azərbaycanın əksər rayonlarında yazlıq bitkilərin əkini optimal müddətdə başa çatdırılıb, 55 min hektara yaxın sahədə yazlıq bitkilər, o cümlədən 9 min hektara yaxın sahədə dənli və dənli paxlalı bitkilər əkilib.

Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata əsasən, cari il 1 058 398,9 hektar sahədə taxıl əkilib ki, bunun 658 383,7 hektarı buğda, 400 015,2 hektarı isə arpa sahəsidir.

Qeyd edək ki, ötən ilin iyul ayında imzalanan "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Prezident fərmanına əsasən, 5 il müddətində pilot suvarma sistemindən istifadə edərək keyfiyyətli məhsul yetişdirən hüquqi və fiziki şəxslərə dəyirman və Dövlət Taxıl Fonduna təhvil verdikləri məhsula görə subsidiya ayrılacaq. Aqrar Subsidiya Şurasının qərarına əsasən bu subsidiyanın həcmi hər tona görə 100 manat təşkil edəcək. Eyni zamanda, dövlət pilot suvarma sistemlərinin idxalı da subsidiyalaşdırılacaq, dəyərin 60 faizi qarşılanacaq, qalan 40 faizə isə güzəştli kredit ayrılacaq.

Onu da deyək ki, artıq taxıl biçini prosesinin idarə olunması məqsədilə Kənd Təsərrüfatı Nazirliyində və dövlət aqrar inkişaf mərkəzlərində qərargahlar yaradılıb. Biçinin optimal müddətdə başa çatdırılması, məhsulun vaxtında və itkisiz yığılması üçün nazirliyin prosesdə iştirak edən qurumlarının fəaliyyətlərinin qərargah tərəfindən koordinasiya olunması, taxıl biçininin gedişatının gündəlik olaraq nəzarətdə saxlanılması və operativ zəruri tədbirlərin həyata keçirilməsi qərara alınıb.

"Aqroservis" Açıq Səhmdar Cəmiyyəti tərəfindən biçinlə bağlı hazırlıqlar da yekunlaşıb. Hazırlıq ərəfəsində bütün rayonlar üzrə biçinə cəlb ediləcək mövcud kombaynlara texniki baxış keçirilib, nasaz vəziyyətdə olan texnikalarda təmir- sazlama işləri görülüb. Hazırlıqların ilkin mərhələsində cari ildə taxıl biçininin itkisiz və mütəşəkkil həyata keçirilməsi məqsədilə kombaynları idarə edəcək mexanizatorlara ödənişsiz təlimlər keçirilib. Cari ildə müxtəlif markalı kombaynlar üzrə ümumilikdə, 283 mexanizator təlimlərə cəlb olunub. Təlimlərdə yüksək nəticə əldə edən mexanizatorlara sertifikatlar verilib.

Həmçinin biçin zamanı dislokasiya planına nəzarət olunması üçün kombaynlar "GPS" nəzarət sistemi ilə təchiz edilib. Bu innovativ nəzarət sistemi biçin zamanı operativliyin reallaşdırılması, biçin prosesinə və dislokasiya planına nəzarət edilməsi və şəffaf idarəetmə mexanizminin qurulmasını şərtləndirir.

Hər il olduğu kimi bu il də kənd və qəsəbələrdə biçin prosesinin növbəlilik əsasında həyata keçiriləcəyi nəzərdə tutulub. Növbəliliyin yaradılmasına icra nümayəndəlikləri və bələdiyyələr tərəfindən dəstək göstəriləcəyi planlaşdırılıb. Biçinə və növbəlilik sisteminə nəzarətin təmin olunmasının isə Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM) tərəfindən gerçəkləşdiriləcəyi qərara alınıb.

Bu il taxıl biçini prosesinə 2 minədək taxılbiçən kombaynın cəlb olunması nəzərdə tutulur. Bunlardan 670-si "Aqroservis" ASC-nin balansında olan kombaynlardır.

Kənd Təsərrüfatı Nazirliyinin "Aqroservis" ASC tərəfindən 2023-cü il taxıl biçininə hazırlıqla bağlı biçini həyata keçirən mexanizatorlarla görüşlər keçirilib. İlk görüş Biləsuvar rayonunda "Aqroservis" ASC-nin İdarə Heyətinin sədri Elmin Rəhmanov, Biləsuvar və ətraf rayonların Dövlət Aqrar İnkişaf Mərkəzlərinin (DAİM) rəhbərlərinin iştirakı ilə reallaşıb. Daha sonra bu görüşlər ardıcıl olaraq bütün ölkəni əhatə etməklə davam etdirilib. Sabirabad, Füzuli, Ağcabədi, Bərdə, Şəmkir, Yevlax, Şəki, Qobustan, Siyəzən və Xaçmaz rayonlarında keçirilən görüşlərə bütün ətraf rayonlarda biçin aparacaq mexanizatorlar cəlb olunub.

Görüşlərdə taxıl biçininin itkisiz və mütəşəkkil həyata keçirilməsi, biçin zamanı qarşıya çıxa biləcək problemlər və onların həllinə dair məsələlər müzakirə edilib. Mexanizatorların təklifləri dinlənilib. Onlara taxıl biçini zamanı biçin qaydaları bir daha izah edilərək, üzərlərinə düşən vəzifə və məsuliyyət barədə məlumatlar verilib.

Aprel ayından başlayaraq davam edən tədbirlər may ayının 30-da "Aqroservis" ASC-nin Xaçmaz Regional Nümayəndəliyində Xaçmaz, Quba, Qusar, Xızı rayonlarında biçin aparacaq mexanitorlarla keçirilən görüşlə yekunlaşıb.

Hazırda respublikanın 24 rayonunda arpa biçini davam edir. Biçin prosesinə 532 kombayn cəlb olunub. Kombaynlardan 304 ədədi fiziki və hüquqi şəxslərə, 228 ədədi isə "Aqroservis" ASC-yə məxsusdur. İyunun 2-dək respublikanın 24 rayonunda 21 min hektar arpa sahəsi biçilib, sahələrdən 48 min tondan çox məhsul yığılıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### *Ekspert rəyi*

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



Respublikamızda son illər ərzində kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması istiqamətlərində mühüm uğurlar əldə edilib. Prezident İlham Əliyev tərəfindən aqrar islahatların müasir mərhələsi ilə bağlı qəbul olunan qərarlar, bu sahənin institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks layihələrin icrası kənd təsərrüfatının keyfiyyətcə yeni inkişaf dövrünə keçməsini şərtləndirib.

Bütün bu tədbirlərin nəticəsində yerli istehsal potensialı güclənib və ərzaq məhsullarının rəqabətqabiliyyətliliyi artıb, eyni zamanda, ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin olunması və əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəlməsi gerçəkləşib.

Azərbaycanın ərzaq təhlükəsizliyi sahəsindəki nailiyyətləri nüfuzlu beynəlxalq qurumların hesabatlarında da əksini tapıb. Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi üzrə hesabata əsasən, respublikamızın ümumi ərzaq təhlükəsizliyi indeksində ardıcıl olaraq yüksəlmə müşahidə olunur. Hazırda ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi üçün yeni institusional mexanizmlərin yaradılması həyata keçirilir.

Ölkədə strateji əhəmiyyətli mallar üzrə daha səmərəli təchizat zəncirinin formalaşdırılması, bu sahədə qabaqcıl tənzimləmə və idarəetmə təcrübəsinin tətbiqi, eləcə də daxili bazarın qısamüddətli mənfi təsirlərə davamlılığının artırılması üçün təsis olunan Dövlət Ehtiyatları Agentliyi uğurla fəaliyyət göstərir. Yeri gəlmişkən, Azərbaycan Prezidentinin 2022-ci il 19 iyul tarixli "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanına əsasən, ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, habelə ərzaqlıq buğda istehsalının təşkili məqsədilə yaradılan yeni mexanizmlər də Azərbaycanın ərzaq təhlükəsizliyinə önəmli töhfələr verir.

Aqrar sektorda yeni sığorta sisteminin tətbiqi də kənd təsərrüfatının inkişafını daha da sürətləndirib. Belə ki, bu sahədə istehsal olunan məhsulların Aqrar Sığorta Fondu ilə özəl sığorta şirkətləri tərəfindən birgə sığortalanması investisiya risklərini azaldıb, fermerlərə dövlət dəstəyini gücləndirib, məşğulluğa müsbət təsir edib və sığorta bazarını genişləndirib.

## Dəmir yolu daşımalarından 106,6 milyon manat gəlir

**Cari ilin yanvar-mart aylarında Azərbaycanda dəmir yolu nəqliyyatı ilə yük daşımalarından əldə olunan gəlir 104 milyon 897,1 min manat gəlir əldə olunub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 48,4 faiz çoxdur.**




Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2022-ci ilin müvafiq dövründə qeyd olunan göstərici 70 milyon 960 min manat təşkil edib. Məlumata görə, hesabat dövründə dəmir yolu nəqliyyatı ilə sərnişin daşımalarından əldə olunan gəlir 1 milyon 735,6 min manat olub ki, bu da 2,6 dəfə artım deməkdir. Müqayisə üçün deyək ki, ötən ilin müvafiq dövründə sözügedən nəqliyyat növü ilə sərnişin daşımalarından əldə olunan gəlir 657,6 min manat təşkil edib.

Yeri gəlmişkən, hesabat dövründə Azərbaycanda dəmir yolu ilə 4 milyon 457,4 min ton yük və 1 milyon 509,5 min sərnişin daşınıb ki, bu da illik müqayisədə müvafiq olaraq 17 faiz və 60 faiz çoxdur.

## Qeyri-neft ixracı 22 faiz artıb

**Bu ilin yanvar-may aylarında ölkəmizdən 1 milyard 465,85 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 22,1 faiz çoxdur.**



Bu barədə İxracın və İnvestisiyaların Təşviqi Agentliyindən məlumat verilib. Agentliyin məlumatına görə, may ayında qeyri-neft ixracının dəyəri 278,25 milyon ABŞ dolları olub ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 25,8 faiz artıqdır. Yeri gəlmişkən, 2022-ci ildə Azərbaycanın qeyri-neft ixracı əvvəlki illə müqayisədə 12,3 faiz artaraq 3 milyard 47,67 milyon ABŞ dolları təşkil edib.

***"Xalq qəzeti"***

# Naxçıvan "yaşıl enerji" zonasına çevrilir

**Əlverişli coğrafi mövqedə yerləşən Naxçıvanın münasib iqlim şəraiti burada bərpaolunan enerji istehsalı üçün yaxşı imkanlar yaradır. Bu da muxtar respublikanın region üçün strateji əhəmiyyətini getdikcə artırır. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da "yaşıl enerji zonası" elan edib.**



Artıq muxtar respublikanın həyatında yeni dövr–energetika əsri başlayıb. Son hesablamalara görə, Naxçıvanın, eləcə də Qarabağ və Şərqi Zəngəzurun bərpaolunan enerji mənbələri üzrə ümumi texniki potensialı 15 qiqavat təşkil edir. Son zamanlar ölkəmizin işğaldan azad olunmuş ərazilərində 53,6 meqavat gücündə 11 kiçik su elektrik stansiyası istismara verilib. Hazırda isə 70,5 meqavat gücündə 7 belə stansiyanın inşası davam etdirilir. Bundan əlavə, il ərzində ümumi gücü 76,8 meqavat olan 9 stansiyanın da tikintisinə başlanılacaq.

Azərbaycanın energetika naziri Pərviz Şahbazovun dediyinə görə, əlverişli günəş radiasiyasına malik Naxçıvanın "yaşıl enerji zonası"na çevrilməsi üçün xüsusi inkişaf konsepsiyası hazırlanıb. Bu konsepsiyaya əsasən, muxtar respublikada külək və günəş enerjisi üzrə 1500 meqavatlıq istehsal güclərinin xarici investisiya hesabına yaradılması və onun ən azı 1000 meqavatının Türkiyə və Avropa istiqamətində ixracı nəzərdə tutulur. Hazırda özəl investisiyaların alternativ və bərpaolunan enerji mənbələrinin yaradılmasına cəlb edilməsi istiqamətində işlər aparılır.

Uzun illər Azərbaycanla enerji sahəsində əməkdaşlıq edən bir sıra xarici ölkələrin qabaqcıl şirkətləri alternativ və bərpaolunan enerji resurslarımıza da böyük maraq göstərirlər. Bu da Azərbaycanda yaradılmış əlverişli investisiya mühitinin mövcudluğu və ölkəmizdə hökm sürən siyasi sabitliyin nəticəsidir. Belə bir şəraitdə Naxçıvan Muxtar Respublikasının bərpaolunan enerji potensialı da xarici şirkətlərin diqqətini getdikcə daha çox cəlb etməyə başlayıb. Elə Bakı Enerji Həftəsi çərçivəsində Naxçıvan şəhərində xüsusi sessiyanın keçirilməsi də təsadüfi deyildi.

Yeri gəlmişkən, sessiyanın gedişində "Total Energies" və "Nobel Energy Management" şirkətləri ilə ümumi gücü 900 meqavat olan günəş və külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədləri imzalanıb. Həmin güclərin 650 meqavatının məhz Naxçıvanda yaradılması nəzərdə tutulur. Bu isə o deməkdir ki, yaxın illərdə Naxçıvanın "yaşıl enerji" şəbəkəsi xeyli genişləndiriləcək. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə istehsal olunan "yaşıl enerji"nin qardaş Türkiyəyə, eləcə də Avropaya məhz Naxçıvan ərazisindən ixracı nəzərdə tutulur.

Energetika naziri Pərviz Şahbazov bu yaxınlarda bəyan edib ki, "Cəbrayıl" enerji qovşağının yaradılması elektrik enerjisinin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana, oradan Türkiyəyə, sonra isə Avropaya ötürülməyə imkan yaradacaq. Bununla da, Naxçıvan "yaşıl enerji"nin istehsalı və istehlakı ilə bərabər, ixracının da həm mənbəyi, həm də marşrutuna çevriləcək. Eyni zamanda, Naxçıvanın Qarabağ və Şərqi Zəngəzurla birlikdə "yaşıl enerji" mərkəzi kimi inkişafı strateji əhəmiyyətə malikdir.

Ölkəmizdə reallaşdırılan "yaşıl enerji" layihələrinin əsas iştirakçılarından birinə çevrilən BP şirkətində də muxtar respublikanın bərpaolunan enerji potensialı yüksək qiymətləndirilir. Belə ki, şirkətin regional prezidenti Qəri Counz jurnalistlərə müsahibəsində Naxçıvanın günəş enerjisi baxımından çox böyük potenisalı olduğunu bildirib. Bunu region üçün çox böyük fürsət kimi dəyərləndirən şirkət rəhbəri, həmçinin deyib ki, burada günəş panellərinin quraşdırılması və geniş ixrac potensialı yaratmaq üçün əlverişli şərait mövcuddur.

Göründüyü kimi, Naxçıvanın bərpaolunan enerji sahəsində yüksək potensialı bölgənin beynəlxalq əməkdaşlıq məkanına çevrilməsi üçün yaxşı imkan yaradır. "Nobel Energy" şirkətində hesab edirlər ki, Naxçıvan şəhərində 400 meqavat gücündə günəş elektrik stansiyasının tikintisi və burada hasil ediləcək elektrik enerjisinin Türkiyəyə ixracına, qismən də yerli istifadəsinə dair imzalanmış anlaşma memorandumu dayanıqlı enerji həllərinin inkişaf etdirilməsi və ətraf mühitə nəzarətin təşfiq olunması baxımından mühüm bir hadisənin tərənnümüdür.

Xatırladaq ki, Anlaşma memorandumu, iyun ayının 3-də Naxçıvan şəhərində "Naxçıvan və Şərqi Zəngəzurun yaşıl enerji potensialı" mövzusunda keçirilən xüsusi tədbirdə, Azərbaycan Respublikasının energetika nazirinin müavini Elnur Soltanov və "Nobel Energy" şirkətinin baş icraçı direktoru Vüqar Səmədli tərəfindən imzalanıb.

Qeyd edək ki, Naxçıvanda yerləşəcək günəş elektrik stansiyasının tikintisi hökumətin ölkə ərazisində "yaşıl enerji zonaları" yaratmaqla təmiz enerjinin təşviqi və karbon emissiyalarının azaldılması istiqamətində sistemli səylərinin bir hissəsi kimi həyata keçiriləcək. Energetika Nazirliyinin bununla bağlı yaydığı məlumatda bildirilir ki, bu memorandum iqtisadi artımı və davamlı inkişafı təmin etmək üçün bərpaolunan enerji potensialından istifadəyə dair ortaq öhdəliyi əks etdirir.

Günəş elektrik stansiyasında təmiz və etibarlı elektrik enerjisi istehsal etmək üçün qabaqcıl günəş texnologiyasından istifadə ediləcək. Layihə regionun zəngin günəş resurslarından istifadə etməklə Türkiyənin dövlət elektrik şəbəkəsinə, eləcə də yerli enerji təchizatına töhfə vermək məqsədi daşıyır.

Təsadüfi deyil ki, imzalanma mərasimində çıxış edən "Nobel Energy"nin baş icraçı direktoru Vüqar Səmədli deyib ki, bu anlaşma rəhbərlik etdiyi şirkətin transformasiya strategiyasının əsas istiqamətlərindən olan ətraf mühitə təsirləri azaltmaqla yanaşı, bütün maraqlı tərəflərə əlverişli və etibarlı enerji əldə etməyə kömək etmək həllərinin təmin edilməsinin təzahürüdür. "Bu, bərpa olunan enerji potensialından istifadə etməklə iqtisadi böyümə və davamlı inkişafa təkan vermək üçün hökumətlə birgə olan öhdəliyimizi əks etdirir. Biz dayanıqlı inkişafı gücləndirmək, yeni imkanlar yaratmaq və davamlı müsbət təsir göstərmək üçün uğurlu tərəfdaşlığa doğru olan bu səyahətimizin növbəti addımlarını səbirsizliklə gözləyirik. Bu sahə böyük potensiala malikdir və biz bu transformasiya yolunda birgə addımlamağı səbirsizliklə gözləyirik",–V. Səmədli əlavə edib.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan hasilata başlanıldığı 1997-ci ilin noyabr ayından 2023-cü il mayın 1-dək 573 milyon ton neft çıxarılıb. Ümumi neftin 134,2 milyon tonu "Çıraq", 355,6 milyon tonu "Azəri", 83,2 milyon tonu isə "Dərinsulu Günəşli" yataqlarının payına düşüb.**

## Azəri-Çıraq-Günəşlidən 537 milyon ton neft çıxarılıb



"Əsrin müqaviləsi"nin operatoru olan BP-nin son məlumatına əsasən, 2023-cü ilin birinci rübündə AÇG yataqlar blokunda hasilatın ümumi həcmi 386 min barel təşkil edib. Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə bu göstərici 434 min barelə bərabər olub.

Bu arada, cari ilin 5 ayı ərzində "Azəri-Çıraq-Günəşli" yataqlar bloku üzrə əldə olunmuş gəlirlər də açıqlanıb. Dövlət Neft Fondundan verilən məlumata görə, 2023-cü il yanvarın 1-dən iyunun 1-dək AÇG yataqlar bloku üzrə əldə olunan ümumi gəlirlər 3 milyard 13 milyon ABŞ dolları təşkil edib.

***"Xalq qəzeti"***

# II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı davam edir

**Bakıda II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı davam edir. Hüseyn Cavid prospektində AMEA-nın binasının qarşısındakı parkda təşkil olunan festivalda müxtəlif sahələrə dair nəşrlər, eləcə də incəsənət nümunələri böyük marağa səbəb olub. Daha geniş proqramla kitabsevərlərin görüşünə gələn budəfəki festival müxtəlif filmlərin, imza və yubiley mərasimlərinin, konsertlərin təşkili ilə də izləyicilərin diqqətini cəlb edib.**



Bakı sakini Tural İbrahimov dedi:

– Müasir yazıçılar, şairlərin yaradıcılığı mənim üçün çox maraqlıdır. Nəşriyyatlar, kitab evləri oxucu tələblərini nəzərə almalıdırlar. Düzdür, axtardığım klassiklərin əsərlərini tapdım. Amma gənc yazarlarla bağlı bunu deyə bilmirəm.

**Qazaxıstana aid "Böyük Bozqırın şəfəqi" filmini izləyən Famil Şamil isə təəssüratlarını bölüşdü:**

– Tarixi filmləri çox sevirəm. "Böyük Bozqırın şəfəqi" filmi çox təsirli və maraqlı idi. Hadisələr Qasım xanın dövründə baş verir. Filmdə qazax xalqının adət-ənənələri və tarixi diqqət çəkir.

Bakıya qonaq gələn – Zəhra və Zöhrə Həbibova bacıları həm bədii və tatixi ədəbiyyatla, həm də əl işləri ilə maraqlandıqlarını, özləri üçün kitablarla bərabər, boyunbağı, qolbaq aldıqlarını dedilər.

Bakı Dövlət Universitetinin filologiya fakültəsinin tələbələri festivalın təşkili üçün məkanın ideal olduğunu bildirdilər. Hər gün dərsdən sonra sərgiyə gəldiklərini və yeniliklərlə tanış olduqlarını bildirdilər. Qeyd etdilər ki, nəşriyyatlar sərgiyə hər gün yeni kitablar gətirirlər.

**Festivalda veteran Əsgər Habilovla tanış olduq. Yaşı 75-i ötən Ə. Habilovun festival barədə fikirlərini öyrəndik.**

– Açıq havada insan axını olan məkanlarda bu cür mədəni tədbirlərin, təşkili gözəl ideyadır – dedi: – Düzdür, əvvəllər kitablara maraq daha çox idi. Amma son dövrlər gənclərdə kitaba marağın artması hiss edilir ki, bu da sevindirici haldır. Sərgi ümumilikdə çox gözəl təşkil olunub. Hər gün mədəni tədbirlər təşkil olunur. Gənclərimiz nə qədər çox mütaliə etsələr, dünyagörüşləri o qədər də genişlənər. Qədim tarixə, zəngin mədəniyyətə malik olan türk xalqlarının mədəni irsinin öyrənilməsi baxımından festivalın böyük önəmi var. Mədəni tədbirlərin təşkili, filmlərin nümayişi festivala əlavə rəng qatır, onu daha da maraqlı edir.

Beləcə, iyunun 5-də başlanan II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı xoş əhval-ruhiyyədə davam edir. Əminik ki, iyunun 11-dək davam edəcək festival kitabın populyarlaşdırılması və mütaliəyə marağın artırılması ilə yanaşı, türk xalqları mədəni irsinin təbliği, mədəni-mənəvi dəyərlərinin qorunması və tanıdılmasına da öz töhfələrini verəcək.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# Xalq yazıçısı Anarla görüş



**İkinci Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı (II LitBookFest) çərçivəsində Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarla görüş keçirilib.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək kitab festivalın əhəmiyyətindən danışıb. Kitab festivalı çərçivəsində görkəmli yazıçılarla, sənət adamları ilə görüşlərin keçirilməsi ənənəsinin bütün dünyada mövcud olduğunu söyləyən alim görkəmli yazıçı və tanınmış ictimai xadim Anarın çoxcəhətli yaradıcılıq fəaliyyətindən bəhs edib.

Akademik İsa Həbibbəyli Xalq yazıçısı Anarın Azərbaycanda ideologiyadan kənar, xalqa xidmət edən ədəbiyyat yaratdığını və ədibin xalqımızı milli istiqlal uğrunda mübarizəyə hazırlayan ədəbiyyatın yaradıcılarından biri olduğunu qeyd edib.

Anarın türk dünyasında böyük nüfuza malik görkəmli yazıçı olduğunu söyləyən akademik İsa Həbibbəyli ədibin əsərlərinin Qərbin və Şərqin 40-a yaxın dilinə tərcümə olunduğunu diqqətə çatdırıb. O, Anarın bu yaxınlarda türk dünyası ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Özbəkistan Respublikasının "Dostluq" ordeni ilə təltif olunduğunu xatırladıb. Həmçinin yazıçının TÜRKSOY-un Türk Dilində Danışan Ölkələrin Yazarlar Birliyinin başqanı seçildiyini bildirib.

Sonda Xalq yazıçısı Anar çıxış edərək tədbirin təşkilatçılarına, iştirakçılarına, diqqətli oxucularına minnətdarlığını bildirib.

# Tanınmış bəstəkarın müəllif konserti

**Tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi Cahangir Zülfüqarovun növbəti müəllif konserti onun sevimli müəllimi – Azərbaycanda simfonizmin banisi Cövdət Hacıyev və atası – uşaq müsiqisisinin klassiki sayılan Oqtay Zülfüqarovun irsinə sadiqliyini bir daha göstərdi.**



Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadə konsertdən öncəki çıxışında bunu xüsusi vurğuladı və bəstəkarın çoxşaxəli yaradıcılığından danışdı. Qırx ildən artıq müddətdə onun həyat verdiyi əsərlərin uğurlu taleyini, müəllifin özününsə sadə, təvazökar xasiyyətini qeyd etdi.

Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova da musiqişünaslar ailəsinin layiqli təmsilçisi Cahangir Zülfüqarovun sənətinə böyük dəyər verdiyini diqqətə çatdırdı. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas Lətifəxanım Əliyeva isə ABİ-nin dəstəyilə bəstəkara həsr etdiyi, yeni nəşr olunmuş broşürdən söhbət açdı.

Tədbirin bədii hissəsi maraqlı keçdi. Fleyta və simfonik orkestr üçün bəstələnmiş "Ümid adası" adlı Qravüraları Xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə ifa edən Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin lent yazısı səsləndirildi. Həmin yazıda fleytada solo ifa bəstəkarın qızı, Beynəlxalq müsabiqə laureatı Əminə Zülfüqarovaya məxsusdur.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının və Atatürk Universitetinin professoru, fəlsəfə elmləri doktoru Həqiqət Məhərrəmovanın ifasında "Sarı gəlin", "Ağ alma" – Piano üçün 2 Fantaziya" tamaşaçılara xüsusi zövq verdi.

Azərbaycan Dövlət Uşaq Filarmoniyası "Şəms" Uşaq Xoru kiçik yaş qrupunun, solistlər Məryəm Əliyeva ilə Fidan Bağırovanın ifaları hər kəsə xoş təsir bağışladı. "Vətən hissi" mahnısı C.Zülfüqarovun nəvəsi Emili Zəkiyyənin solistliyi, eyni zamanda, xorun tərkibində bəstəkarın digər nəvəsi İnarə Zülfüqarovanın iştirakı ilə gözəl səsləndi. Azərbaycanda uşaq musiqisinin klassiki Oqtay Zülfüqarovun "Elegiya" əsərinin budəfəki ifasının özəlliyi isə ondan ibarət idi ki, onu ustadın nəticəsi – Əfrasiyab Bədəlbəyli adına 11 illik musiqi məktəbinin VI sinif şagirdi Əfrasiyab Məmmədov pianoda ifa edirdi. C.Zülfüqarovun uşaqlıq və gənclik dostları Rauf İmanov və Məbud Məhhərəmovun şux xatirələri də görüşə rəng qatdı.

Müəllif fleyta və 2 piano üçün bəstələdiyi "Oazis" əsərini fleytada qızı Əminə Zülfüqarova və nəvəsi Əfrasiyabla birgə pianoda ifa etməklə tədbirin son akkordlarını vurdu. Sonra qısa nitqlə hamıya öz təşəkkürünü bildirdi.

***"Xalq qəzeti"***

**Ötən gün Nizami Kino Mərkəzində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yardımı ilə "Obyektiv" Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyi tərəfindən hazırlanmış "İşgəncələr məbədi - Şuşa həbsxanası" adlı sənədli filmin ictimai müzakirəsi keçirildi.**

# "İşgəncələr məbədi – Şuşa həbsxanası"



Agentliyin İcraçı direktoru Aygün Əliyeva "Obyektiv" Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin rəhbəri, tanınmış telejurnalist Mübariz Əsgərovun müəllifi olduğu "İşgəncələr məbədi – Şuşa həbsxanası" sənədli filminin bu günlərdə televiziyalarda nümayiş etdirildiyini və böyük rezonans yaratdığını bildirdi. A.Əliyeva xarici ölkələrdəki vətəndaş cəmiyyəti təsisatlarını, insan hüquq və azadlıqlarını müdafiə edən beynəlxalq təşkilatları Şuşa həbsxanası və burada işgəncələrə məruz qalmış əsirlərlə bağlı aşkara çıxan faktlara diqqət yetirməyə çağırdı.

Sonra film nümayiş etdirildi. Ekran işində üç keçmiş əsir – Cavid Hüseynov, Həbib Kazımov və Bayram Rüstəmovun Şuşa həbsxanasında keçirdikləri ağrılı-acılı günlərindən bəhs edilir. Bu üç şəxsin əsirlik həyatı heç vaxt unuda bilməyəcəkləri dəhşətli hadisələrlə doludur. Onlar həbsxananın soyuq divarları arasında insanlığa sığmayan işgəncələr altında "həyat" sürüblər. Hətta, əsirlərdən biri danışır ki, səhər açılanda istəmirdim oyanım, ölüb getmək, bu ağrılı və əzablı günlərin bitməsini arzulayırdım. Bizi o qədər döyürdülər ki, artıq bədənimizdəki ağrıları belə hiss etmirdik. Başa düşə bilmirdim, onlar insanları qanlarına qəltan etməkdən, onların həbsxana divarlarına çökən ah-naləsindən necə zövq ala bilirdilər?..

Beynəlxalq konvensiyalara və hüquq normalarına görə, münaqişələr zamanı əsir və girov götürülmüş şəxslərin qapalı yerlərdə saxlanılmasına yol verilmir. Lakin ermənilər bütün bu hüquqları pozaraq azərbaycanlı əsirlərə olmazın işgəncələr vermiş, girovların bəzisi isə bu əzablara dözməyərək canını tapşırmışdır. Filmdə üstü açılan dəhşətli faktları, işgəncələrlə öldürmə hallarını bu günlərdə Şuşa həbsxanasının ərazisində tapılmış kütləvi məzarlıq da təsdiq edir.

Çəkilişlər həm Şuşa, həm də Qobustan həbsxanasında aparılıb.

Filmin quruluşçu rejissoru Nizami Mahmudov, səs rejissoru Anar Bayramov, operatorları Tural Əhmədov, Natiq İsayev və Rafiq Əliyevdir.

Filmin nümayişi başa çatandan sonra müzakirələr aparılıb. Tanınmış ictimai xadimlər, QHT təmsilçiləri fikirlərini bölüşüblər.

***Fidan HÜQUQQIZI,***
***"Xalq qəzeti"***

# Hər kitab bir dünyadır

**Filologiya elmləri doktoru, professor Vaqif Sultanlının yenicə yayımlanmış "Azərbaycan mühacirət ədəbiyyatı: başlanğıcdan günümüzədək" kitabı ən qədim dövrlərdən çağdaş dönəmədək mühacirətin keçib gəldiyi yolun, zəngin ədəbi-bədii və nəzəri-kulturoloji irsin araşdırılması baxımından önəm daşıyır.**




**Azərbaycan Dövlət Nəşriyyatında çap olunan bu kitab müəllifin mühacirət ədəbiyyatı ilə bağlı ilk araşdırması deyil. Belə ki, onun eyni mövzuda neçə-neçə kitabı və məqalələri var.**

Vaqif Sultanlının yeni kitabını əvvəlki araşdırmalarından fərqləndirən əsas cəhət burada mühacirət ədəbiyyatının tarixinə bütöv və sistemli şəkildə yanaşılmasıdır. Müəllif VII əsrin sonları VIII əsrin əvvəllərində Mədinəyə köç etmiş məvali şairlərdən başlayaraq Sovetlər Birliyinin dağılmasından sonra mühacirətin yayılma arealına qədər geniş zaman kəsimini əhatə edib, bu dönəmdə yaranmış ədəbi-kulturoloji irsin ümumi mənzərəsini canlandırıb.

***




**Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan və Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) məxfi materialları əsasında İlham Tumasın hazırladığı "Gizli cinayətlər" kitabı çapdan çıxıb.**

Kitabda Azərbaycan xüsusi xidmət orqanının müxtəlif vaxtlarda həyata keçirdiyi əməliyyatlar haqqında araşdırmalar yer alıb. Nəşr Karyera və İşə Hazırlıq Mərkəzinin dəstəyi ilə çap olunub və layihə rəhbəri isə Şahin Sərdarlıdır.

Kitabdakı sənədlər və fotolar oxuculara ilk dəfə təqdim olunur.

***

**Qərbi Azərbaycan İcmasının binasında tanınmış jurnalist Səyyad Ağbabalının nəfis şəkildə çapdan çıxmış "Ağbaba" kitabının təqdimat mərasimi keçirilib.**



Tədbirdə Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli, Yazıçılar Birliyinin katibi, Mətbuat Şurasının sədri Rəşad Məcid, eləcə də ziyalılar, yazıçılar, müəllim sənət dostları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bildirilib ki, S.Ağbabalının "Bir ömür yaşadım ağlı-qaralı" publisistik toplusundan sonra qələmə aldığı "Ağbaba" kitabının ön səhifələrində ümummilli lider Heydər Əliyevin Qərbi Azərbaycan haqqında söylədiyi fikirlər, eləcə də Prezident İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı etdiyi çıxışdan seçmələr verilib. "Ağbaba" poemasında isə müəllifin yurd həsrəti, doğma od-ocaq sevgisi, eyni zamanda, bu qədim mahalımızın tarixi, mədəni irsi, ənənələri, milli-mənəvi adətləri əks olunub.

***Ə.ƏLİYEV,***
***"Xalq qəzeti"***

Ustadlarımızın xatirəsi

# Jurnalistikanın halallıq ənənəsi

## Professor Nəsir Əhmədli bu yolun sadiq davamçısı oldu

**Təəssüf ki, illər keçdikcə çağdaş Azərbaycan mediasının əvəzsiz dəyərləri – Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini mükəmməl ali təhsil mərkəzi səviyyəsinə çatdırmış ustadlarımız Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Nurəddin Babayev, Qulu Xəlilov, Tofiq Rüstəmov, Famil Mehdi, Nəriman Zeynalov, Əliş Nəbili və başqaları haqqında keçmiş kimi danışmağa məcbur olduq. Həyatın bu qarşısıalınmaz gedişi və zamanın bu amansız hökmü düz bir il əvvəl – 2022-ci ilin 7 iyununda jurnalistika fakültəsinin professoru Nəsir Əhmədlinin də adını bu sıraya əlavə etdi.**

***Hər kəsin yaddaşında səmimi bir sevgi ilə qaldı Nəsir müəllim: gözəl insan, təmkinli müəllim, fədakar alim və hər zaman yeri görünəcək bənzərsiz ustad! Bu dünyanın baş-ayaq işlərinə əyilmədi, dürüst, ləyaqətli, mərd bir insan ömrü yaşadı. İstedadlı alim, qayğıkeş ata, sədaqətli dost oldu...***

***Nəsir müəllimin Azərbaycan jurnalistikasındakı xidmətləri o qədər əhatəli və samballıdır ki, bu mükəmməlliyi sonadək açıqlamağa çətinlik çəkirik. Lakin görünən dağa bələdçi lazım olmadığı kimi, Nəsir müəllimin kimliyi də iri planda gözlərimiz önündədir. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin yetirməsi olmuş, Azərbaycan Televiziyasında ciddi yaradıcılıq yolu keçmiş, media sahəsində elmlər namizədi və doktoru dərəcəsi almış, məzunu olduğu ali məktəbdə yarım əsrə yaxın pedoqoji fəaliyyətlə məşğul olmuş Nəsir Əhmədli bunlarla yanaşı, praktik dilçilikdə informasiya-publisistika üslubu və nitq mədəniyyəti ilə bağlı öz məktəbini də yaratdı, ardıcıllarını yetişdirdi.***

***Professor Nəsir Əhmədlinin belə bir mötəbər mövqeyə yüksəlişi ustadlarına sevgi və bağlılıqdan, onların dəyər və etimadından qaynaqlanıb. Bu sırada o, BDU-nun jurnalistika fakültəsinin yaradıcılarından olmuş Şirməmməd Hüseynovun adını ayrıca çəkərdi.***



***Nəsir Əhmədlinin ölümündən əvvəl öz ustadı haqqında yazdığı və üstündə "Xalq qəzeti" üçün qeydi olan məqalə də bu məxsusi sevgi-sayğının yadigarıdır. Həmin yazını alimin arxivindən əldə edərək hər iki ustadımızın ruhuna dərin ehtiramla geniş auditoriyaya təqdim eidrik.***



### I. Qəbul imtahanında, yaxud Şirməmməd Hüseynov mənim "dayı"m olub

1966-cı il avqustunda ADU-nun (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsinə qəbul imtahanı verirdim. İlk imtahandan (Azərbaycan dili və ədəbiyyat - yazılı) "5" almışdım. Növbəti imtahan həmin fənnin şifahisindən idi. Bilet çəkib ön sırada əyləşdim. Suallarla tanış olanda gördüm ki, müəllimlərdən biri (sonra biləcəkdim: Famil Mehdi) o birinə (professor Əlövsət Abdullayevə) deyir: "Bu, Şirməmməd müəllim deyən oğlandır. Özünü çağırmaq lazımdır". Sanki, bu sözləri gözləyirmiş kimi, Şirməmməd müəllim (o vaxt nə adını bilirdim, nə də üzünü görmüşdüm) auditoriyaya daxil oldu. İşarə elədilər ki, bu, həmin oğlandır. Mənə yaxınlaşıb suallarıma baxdı: 1) M.F.Axundovun "Puşkinin ölümünə Şərq poeması"; 2) Süleyman Rüstəmin Cənub şeirləri; 3) Cümlə təhlili.

– Hə, balası, fikirləşmədən danışa bilərsən?

– Bəli, – cavab verdim.

Məndən imtahanın iki sualını o özü (O vaxt Şirməmməd müəllim fakültənin dekan müavini imiş, jurnalistika şöbəsinə qəbulun məsuliyyətini o daşıyırmış) götürdü. İlk sualı "Poema hansı dildə yazılıb?"– oldu.

– Farsca, – fikirləşmədən cavab verdim.

– Bir parça əzbər deyə bilərsənmi?

– Kimin tərcüməsində?– bu dəfə mən sual verdim.

– Kimlər tərcümə edib ki?

– Mikayıl Müşfiq, Cəfər Xəndan, Böyükağa Qasımzadə...– sözümü tamamlaya bilmədim.

– Mikayıl Müşfiqin.

– Gecə etdim uyğumu gözümdən kənar, Sordum: "Ey sirr çeşməsi ürəyim, nə var?.."

– Bəs Cəfər Xəndanda necə başlanır?

– Gözlərimdən yuxu qaçmış, məni boğmaqda xəyal, Düşünən beynimi sarmış yenə bir qəmli sual...

– Keç ikinci suala. "Cənub şeirləri"nin qayəsi nədir?

Düzü, başqa bir müəllim bu sualı versə idi, bəlkə də, başqa bir cavab verərdim. Amma Şirməmməd müəllimə ciddi bir güvənclə içimdən gələn çavabı verdim:

– Bütöv Azərbaycan. Əvvəl-axır Azərbaycan birləşib bütöv olacaq…

Təkidlə üzümə baxdı və bir anlıq sükutdan sonra, cümlə təhlilinə keç,– dedi. Cavabımı dinləmədən üzünü rəhmətlik Əlövsət müəllimə tutaraq:

– Kişinin qiymətini köçür aşağı (yəni keçən imtahandan aldığı "5"-i). Bu, gələcəkdə jurnalistika fakültəsinin professoru olacaq.

Sonradan öyrəndim ki, mənim yazı işim yoxlanarkən də həlledici sözü Şirməmməd müəllim deyibmiş. "Qəhrəman Azərbaycan qadınları" adlı sərbəst inşam mübahisələrə səbəb olub. Deyiblər ki, dövrün Bəsti Bağırova, Şamama Həsənova, Sevil Qazıyeva kimi əmək qəhrəmanları haqqında bircə cümlə yazılıb, ən çox Tomrisdən, Nüşabədən, Nigardan, Həcərdən bəhs olunur. Şirməmməd müəllimin sözü kəsə olub: "Bu düşüncənin sahibi "5" almalıdır". Kimsə pıçıldayıb ki, bəs deyirdilər, bu heç kəsi universitetə düzəltmir?! Şirməmməd müəllimin qulağı pıçıltını çalıb və cavab verib ki, gələcəkdə görərsiniz mənim düzəltdiyim kimdir…

### II. "Pravda" və müstəqillik

Şirməmməd müəllim III kursda bizə "Partiya-sovet mətbuatı tarixi" fənnindən dərs deməyə başladı. "İskra"dan, "Pravda"dan, "Proletari"dən danışırdı. Amma elə danışırdı ki, elə bil bunlar bolşevik qəzetləri deyildi, gələcəkdə Azərbaycan jurnalistlərinə lazım olacaq təcrübə məktəbi idi. Şirməmməd müəllimin o vaxt bizi Azərbaycanın müstəqillik dövrünə hazırladığını xeyli sonralar başa düşdük.

### III. "Sənin baban Şaumyandır, yoxsa Əmiryan?"

1918–20-ci illərin bolşevik mətbuatından danışanda tələbələrdən biri yana-yana dedi: "Heyif ki, 1918-ci ildə bizim babalarımızı – 26 Bakı komissarını ingilislər güllələyiblər".

Şirməmməd müəllim dözə bilməyib cavab verdi: "Şəxsən mənim elə babalarım olmayıb. Bəs səninki hansıdır – Şaumyan, yoxsa Əmiryan?"

### IV. "Burjua cəmiyyətində jurnalistlər təqib olunur"

Dördüncü kursda Şirməmməd müəllim bizə "Xarici ölkələrin kommunist və fəhlə mətbuatı tarixi"ni tədris edib. Özü də necə? Məsələn, Vyetnam mətbuatından danışanda deyirdi ki, Vyetnam vətənpərvərləri yadelli işğalçılara qarşı mübarizə aparanda qarınlarını cırıb qumbaranı oraya yerləşdirirlər ki, əsir düşəndə də yağılara ziyan vura bilsinlər. Sonra astadan əlavə edərdi: "Vətənin müstəqilliyini belə qoruyarlar, bizim kimi yox".

Xarici mətbuat dərslərində "Deyli uorker", "Morninq star". "Humanite" kimi kommunist qəzetlərinin çıxma tarixini göstərəndən sonra daha çox "burjua" qəzetlərindən danışar, oradakı müəlliflərin yazılarını vətənpərvərlik baxımından təhlil edərdi. Məsələn, İspaniya mətbuatından danışanda özü ilə Mariano Joze de Larranın "Satirik oçerklər" kitabını gətirmişdi. Mən həmin kitabdakı oçerkləri tələbələr qarşısında ucadan oxuyub, birbaşa tərcümə edirdim. Yadımdadır: bir dəfə Larranın "Sən saydığını say, gör fələk nə sayır, yaxud jurnalist olmaq nə deməkdir" oçerkini oxuyanda Şirməmməd müəllim gördü ki, tələbələrdən biri (onun haraya xidmət etdiyini bəzilərimiz bilirdik) çox narahatdır və qarşısındakı kağıza nəsə yazır. Dərhal mənim sözümü kəsib dedi: "Görürsünüz dəə, uşaqlar, burjua cəmiyyətində jurnalistləri necə təqib edirlər".

Sonralar mən həmin oçerkin tərcüməsini "Müxbir" jurnalında dərc etdirmək istəyəndə Qlavlit (senzura) icazə vermədi. Jurnalın redaktoru Oqtay Cəfərov Şirməmməd müəllimlə məsləhətləşəndən sonra ona bir ön söz yazdıq. Məzmunu, təxminən, belə idi ki, əziz oxucular, biz sovet jurnalistləri çox xöşbəxtik, kapitalist ölkələrində isə onların heç bir azadlığı yoxdur. Bundan sonra tərcümə növbəti nömrədə dərc edildi və çox böyük əks-səda doğurdu...

"Xarici mətbuat" dərslərində Şirməmməd müəllimin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də Azərbaycan mətbuatının beynəlxalq əlaqələri idi. Əcnəbi müəlliflərin Azərbaycan mətbuatında dərc olunmuş yazılarını və xarici mətbuatda respublikamız haqqındakı məqalələri özü ilə gətirib bizə oxudardı. O vaxtdan məndə bu sahəyə həvəs yarandı və xarici publisistikada Azərbaycan mövzusuna dair əvvəl diplom işi, sonra isə namizədlik dissertasiyası yazdım.

### V. Qəbul imtahanından 9 il sonra

1971-ci ildə fakültəni bitirib Azərbaycan Televiziyasına təyinat aldım. Yenə də Şirməmməd müəllimin köməyi ilə. O vaxt jurnalistika şöbəsi fakültəyə çevrilmişdi və Şirməmməd müəllim dekan idi. 4 il yarım orada çalışdım. 1975-ci ilin dekabrında şəxsən özü zəng vurub məni fakültəyə işə dəvət etdi. Onda ilk yadıma düşən bu oldu: demək, Şirməmməd müəllim heç nəyi unutmayıb, 1966-cı ilin avqustunda qəbulda dediyi, bu oğlan gələcəkdə fakültənin müəllimi olacaq sözünü də... Beləliklə, o vaxtdan fakültədə işə başladım.

Hazırda jurnalistika fakültəsində çalışan professor və dosentlərin əksəriyyətini müxtəlif vaxtlarda məhz Şirməmməd müəllim seçib işə götürüb. Ona görə də...

### VI. Halallıq ənənəsinin müəllifi

Ona görə də BDU-nun jurnalistika fakültəsi, bəlkə də, yeganə yerdir ki, heç bir müəllim heç bir tələbə qarşısında gözükölgəli deyil. Bunu məzunlar da təsdiq edə bilər, bugünkü tələbələr də. Bu halallıq ənənəsinin müəllifi məhz uzun illər fakültədə müxtəlif rəhbər vəziyələrdə işləmiş professor Şirməmməd Hüseynov olub.

70-ci illərin əvvəllərində fəlsəfə müəllimlərindən birinin qiyabiçi tələbədən rüşvət alması barədə Şirməmməd müəllimə siqnal çatır və fakt təsdiqləndikdən sonra həmin müəllim dərhal həbs olunur. Müstəqilliyin ilk çətin illərində, elə bugünün özündə də jurnalistika fakültəsinin müəllimləri ağır iqtisadi durum qarşısında əyilməmək, sınmamaq üçün öz əsas iş yerləri ilə yanaşı, ya bir neçə özəl universitetdə də dərs deyir, ya da müxtəlif informasiya vasitələrində çalışaraq başlarını əvvəlki kimi yenə də dik tuturlar.

Harada işləmələrindən asılı olmayaraq fakültə məzunları öz müəlllimlərinə halallıq nümunəsi kimi baxırlar, həmişə onların yolunu saxlayırlar. Bunlar Şirməmməd müəllimin qoyduğu böyük ənənələrdən biridir...

***Nəsir ƏHMƏDLİ,***
***BDU-nun professoru***

**20 iyun 2020-ci il**

Daşkənddən gələn qonaq

# "Azərbaycan şeir antologiyası" özbək dilində

## Müsahibimiz toplunun tərcüməçisi Dilbər Heydərovadır

**Bu yaxınlarda Özbəkistanda Dilbər Heydərovanın tərcüməsində "Azərbaycan şeir antologiyası" çapdan çıxıb. Bu antologiya XII əsrdən üzübəri 120 Azərbaycan şairinin yaradıcılığını əhatə edir. Azərbaycan Yazıçılar Birliyinin Natavan klubunda həmin kitabın təqdimat mərasimi keçirildi.**

Tədbirdə çıxış edənlər bildirdilər ki, Azərbaycan–Özbəkistan ədəbi əlaqələrinin çoxəsrlik zəngin tarixi var. Müstəqillik qazandığımız son 32 ildə bu əlaqələr yeni müstəvidə uğurla davam etdirilir. Qarşılıqlı səfərlər olur, Azərbaycan ədəbiyyatının Özbəkistanda, özbək ədəbiyyatının Azərbaycanda təbliği geniş vüsət alır. Ötən ilin iyununda Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri zamanı Prezident Şavkat Mirziyoyev ölkəmizin rəhbərinə Məhəmməd Füzulinin



əlyazmasını hədiyyə edib və bunu bizim ümumi sərvətimiz kimi dəyərləndirib. Bu ilin mart ayında Özbəkistan Prezidentinin sərəncamı ilə Azərbaycan Yazıçılar Birliyinin sədri, TÜRKSOY Yazıçılar Birliyinin fəxri prezidenti, Xalq yazıçısı Anara "Dostluq" ordeni təqdim olunub.

Daha sonra ədəbi əlaqələr sahəsində özbək yazarlarından Xasiyyət Rüstəmin, Rəhmət Babacanın və digər tanınmış qələm adamlarının müstəsna rolu qeyd edildi və şair-tərcüməçi Dilbər Heydərova iştirakçılara təqdim olundu. Dilbər xanım Moskvada Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunu bitirib. Davamlı olaraq Azərbaycan poeziyasından tərcümələr etməklə məşğuldur, şeir və nəsr nümunələri dünyanın bir çox dillərinə tərcümə olunub.

Azərbaycanlı qələm dostlarının əhatəsində onunla söhbət fürsətini yaxalamaq bir az çətin oldu. Təqdimat mərasimindən sonra da digər tədbirlərdə iştirak edəcəyindən çox tələsirdi. Amma ayaqüstü də olsa, söhbətləşə bildik və eksklüziv müsahibəmiz baş tutdu.

**– Dilbər xanım, Azərbaycana xoş gəlmisiniz!**

– Təşəkkür edirəm! Azərbaycan hər zaman bizim könlümüzdədir. Bakıya ilk gəlişim deyil, əvvəllər də səfərlərim olub. Burada çoxlu dostlarım var, onlarla bir yerdə olmaqdan böyük məmnunluq hissi keçirirəm. Bizim xalqların ədəbi dostluq tarixinə nəzər salanda öncə Səməd Vurğun–Qafur Qulam, Mirvarid Dilbazi–Zülfiyyə dostluqları xatırlanır. Bu əlaqələr hər iki xalqın ədəbiyyatının yaxınlaşmasına xidmət edib və buna görə bu gün də onları minnətdarlıqla xatırlayırıq. Hazırda biz həmin ənənəni davam etdirmək üçün çalışırıq. Qələm dostlarımızla görüşmək isə ayrı zövqdür. Mən Azərbaycan poeziyasını çox sevirəm.

**– Necə oldu ki, belə bir kitabı ərsəyə gətirdiniz?**

– Zaman-zaman Azərbaycan poeziyasıyla maraqlanmışam və ara-sıra sevdiyim şairlərin şeirlərini özbək dilinə tərcümə etmişəm. Bir də baxıb gördüm ki, şeirlərini tərcümə etdiyim şairlərin sayı 100-ü keçib. Ömrümün 6 ilini bu işə sərf etmişəm. Sonra düşündüm ki, bu şeirləri bir yerə toplayıb antologiya kimi çap etdirək, özbək oxucuları Azərbaycan poeziyasını küll halında oxumaq imkanı qazansınlar. Kitaba ön sözü filologiya elmləri doktoru, professor Almaz Ülvi Binnətova yazıb.

**– Topluda hansı şairlərin əsərləri yer alır?**

– İmadəddin Nəsimidən üzübəri Xurşudbanu Natavana, Bəxtiyar Vahabzadəyə, Məmməd Araza qədər Azərbaycan poeziyasının müxtəlif dövlərdə yaşamış böyük şairlərinin şeirlərini çevirmişəm. Müasir şairlərdən Səlim Babullaoğlu, Baba Vəziroğlu, Rüstəm Behrudi, Adil Cəmil, Maarif Soltan, İbrahim İlyaslı və digər tanınmış şairlərin şeirlərindən seçmələr də var.

**– Bu antologiyanın davamı olacaqmı?**

– Təbii, mütəmadi olaraq Azərbaycan şairlərinin sevdiyim şeirlərini özbəkcəyə çevirmək artıq sevimli peşə vərdişimə çevrilib. Şübhəsiz, bu iş gələcəkdə də davam etdiriləcək, əməkdaşlığımız daha da genişlənəcək. Bu antologiya Azərbaycan ədəbiyyatının Özbəkistanda daha dərindən öyrənilməsi üçün bir mənbə olacaq. Azərbaycan–özbək ədəbi əlaqələrinin inkişafına töhfə verməyə çalışmışam və bundan çox məmnunam.

**– Səfər təəssüratınız necədir?**

– Möhtəşəm. Bütün azərbaycanlı qələm dostlarıma sevgi və sayğılarımı çatdırıram. Burda hörmət-izzət, təbii bir mehribanlıq gördüm, bu, məni xoşbəxt elədi. Təəssüratlarım zəngindir və ömrüm boyu bu mehmannəvazlığı unutmayacağam. Bu tədbirdə də Azərbaycanın




tanınmış qələm adamlarını gördüm, fərəhləndim. Gəncə və Sumqayıt görüşləri də qəlbimi dağa döndərdi. Bu doğma münasibət çox qürurvericidir.

Görürəm ki, sizlər özbək mədəniyyəti ilə yaxından tanışsınız, bizim ədəbiyyatımızı izləyirsiniz, tarixi köklərinə bələdsiniz. Özbək ədəbiyyatının böyük şairi Əlişir Nəvai Azərbaycanda sevilir. Bu kontekstdə xeyli işlər görülüb. Eyni zamanda, Özbəkistanda da Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsi dərindən öyrənilir. Bildiyimiz kimi, Nəvai Nizaminin əsərlərindən ilham alıb, onu "şairlərin şahı" adlandırıb. Digər klassik Azərbaycan şairlərinin də ədəbi irsi tədqiqatçılar tərəfindən araşdırmalara cəlb olunur. Biz də bu yolu davam etdirməyə çalışırıq.

**– Dilbər xanım, sizə bu yolda uğurlar arzulayırıq. Yəqin ki, gələcəkdə Azərbaycanda da kitabınızın nəşrini planlaşdırırsınız.**

– Sağlıq olsun. Əsas odur ki, dəyərli kitablar hasilə gətirək.

***Kənan HACI,***
***yazıçı-publisist***

# Elm – bilik aləmində



**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda "Fəlsəfənin pandemiyası" mövzusunda ümuminstitut seminarı keçirilib.**

Seminarı fəlsəfə elmləri doktoru Füzuli Qurbanov açaraq mövzunu təqdim edib. Məruzə ilə çıxış edən fəlsəfə elmləri doktoru, professor Əli Abasov sözügedən terminin məğzini açıqlayıb, dünya və insan arasında daim inkişafda olan sistemli əlaqələrin fəlsəfi mahiyyətinə toxunub. O, pandemiya fəlsəfəsinin sivilizasiyaya təsirlərindən, dünyanın ən böyük problemlərdən olan böhran və onun doğurduğu nəticələrdən danışıb.

Sonra institutun icraçı direktoru, tarix elmləri doktoru Eynulla Mədətli, fəlsəfə elmləri doktoru Rəfiqə Əzimova, AMEA-nın müxbir üzvü Könül Bünyadzadə və digər əməkdaşlar məruzəçiyə suallar verib, mövzu ətrafında fikir mübadiləsi aparıblar.

***

**Bu gün Bakıda Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən "Seysmologiya və mühəndis seysmologiyası" mövzusunda VII beynəlxalq konfrans başlanır.**

Konfransda AMEA rəhbərliyi, Türkiyə Elm və Texnoloji Tədqiqat Şurasının (TÜBİTAK) prezidenti Hasan Mandal, elmi institut və təşkilatların rəhbərləri, ali məktəb rektorları, yerli və xarici seysmoloq alimlər, habelə dövlət qurumlarının rəsmiləri iştirak edəcəklər.

Açılış mərasimindən və oradakı çıxışlardan sonra konfrans öz işini müvafiq panellər üzrə davam etdirəcək. Beynəlxalq tədbir çərçivəsində, həmçinin ölkəmizə gələn xarici seysmoloq alim və mütəxəssislərin Şuşa şəhərinə səfəri də nəzərdə tutulub.

***Ə.ƏLİYEV, "Xalq qəzeti"***

# Özbəkistan nümayəndə heyəti DOST Agentliyində

**Özbəkistan Respublikası Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyinin direktoru Mansurbek Olloyerovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizin qonağıdır.**



Sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyində nümayəndə heyəti ilə görüş olub. Görüşdən əvvəl qonaqlar 1 saylı DOST Mərkəzi, burada əhaliyə göstərilən xidmətlərlə tanış olublar. Onlar üçün DOST konsepsiyasına, nazirliyin innovativ iş təcrübələrinə, elektron sistemlərinə dair təqdimatlar edilib.

Özbəkistan nümayəndə heyəti ilə görüşdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ölkələrimiz arasında qədim tarixə malik əlaqələrin olduğunu, Azərbaycan və Özbəkistan dövlət başçılarının səyləri ilə bu əlaqələrin daim inkişaf edərək genişləndiyini, beynəlxalq təşkilatlar çərçivəsində də iki ölkə arasında sıx əməkdaşlığın həyata keçirildiyini vurğulayıb.



Ötən dövrdə imzalanan əməkdaşlıq sənədlərinin əlaqələrin inkişafında mühüm önəmi qeyd edilib. İki ölkə arasında əlaqələrin, qarşılıqlı faydalı əməkdaşlığın sosial sahəni də əhatə etdiyi bildirilib.

Nümayəndə heyətinə Azərbaycanda əmək və məşğulluq, sosial müdafiə sahələrində son illər aparılan islahatlar barədə ətraflı məlumat verilib. Sosial sahədə innovativ həllərin geniş tətbiqi istiqamətində görülən işlər, DOST konsepsiyası, proaktiv xidmət mexanizmləri diqqətə çatdırılıb.

M.Olloyerov ölkələr arasında ikitərəfli əlaqələrinin daim genişlənməkdə olduğunu və sosial əməkdaşlığın inkişaf etdirilməsinin, sosial islahatlar prosesində təcrübə mübadilələrinin əhəmiyyətini vurğulayıb.

Nümayəndə heyətinin üzvləri agentliyin direktorunun birinci müavini xanım Şahnoza Mirziyoyeva və direktorun müavini Muxtorxon Taşxodjayev, həmçinin Özbəkistanın "Zamin" Fondunun icraiyyə komitəsinin rəhbəri Tamila Əliyeva da görüşdə iştirak edib.

Görüşdə sosial müdafiə, sosial xidmətlər, habelə bu sahələrdə innovativ həllərin, elektron texnologiyaların tətbiqi və s. üzrə gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb. Qonaqlar səfər çərçivəsində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi, burada sosial cəhətdən həssas qrupların yaradıcı potensialının inkişafı üçün yaradılan şəraitlə, aparılan işlərlə də tanış olublar.

* * *

**Özbəkistanın nümayəndə heyəti 5 saylı DOST Mərkəzi ilə tanış olub. Mərkəzdə qonaqlarla görüşdə Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev ölkəmizdəki sosial xidmət və reabilitasiya sistemi, bu sahələrdə aparılan islahatlar barədə məlumat verib. Görüşdə qeyd olunan sahələrdə təcrübə mübadilələrinin əhəmiyyəti vurğulanıb.**

Nümayəndə heyəti üçün Sosial Xidmətlər Agentliyi (SXA), Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın fəaliyyətinə dair təqdimatlar edilib.

Qonaqlar səfər çərçivəsində SXA-nın paytaxtın Nərimanov rayonundakı İxtisaslaşmış Sosial Xidmət Mərkəzi, Pirallahı rayonundakı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün yeni Günərzi qayğı mərkəzi və bu təbəqədən olan uşaqlar üçün 1 saylı Sosial xidmət müəssisəsində, Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Şağan Reabilitasiya Pansionatında da olublar.

Nümayəndə heyətinə həmin müəssisələrin fəaliyyəti, həssas əhali qruplarına, əlilliyi olan şəxslərə göstərilən reabilitasiya xidmətləri barədə məlumat verilib. "Birgə və Sağlam" İB Autizm Mərkəzində olan qonaqlar həmçinin Sosial Xidmətlər Agentliyinin sosial işçilərinin həssas qruplara aid uşaqların ailələrinə səfərlər edərək qiymətləndirmə aparması prosesi ilə yaxından tanış olublar.

***Zərifə HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

# İtkin düşmüş şəxslərlə bağlı Beynəlxalq Komissiyanın nümayəndələri ilə görüş



**BMT-nin İtkin düşmüş şəxslərlə bağlı Beynəlxalq Komissiyasının Koordinasiya və əməkdaşlıq üzrə direktoru Andreas Kleyzerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Baş Prokurorluqda görüş keçirilib.**

Baş prokurorun birinci müavini Elçin Məmmədov Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 3890 azərbaycanlının taleyinə bu günə kimi aydınlıq gətirilmədiyini, onlar barədə Ermənistan tərəfindən hələ də müfəssəl məlumatların təqdim olunmadığını qeyd edərək, bu xüsusda ICMP ilə əməkdaşlığa böyük önəm verildiyini vurğulayıb.

Andreas Kleyzer hərbi münaqişələr zamanı itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi və insanlıq əleyhinə törədilmiş cinayətlərin müəyyən edilməsi sahəsində uzun illərə dayanan təcrübəyə malik komissiyanın Azərbaycan rəsmiləri ilə sıx əməkdaşlığa hazır olduğunu, xüsusilə, prokurorluq orqanlarının bu sahədə aparıcı rol oynadığını bildirib.

Üçüncü bildiriş

# Əmanətlərin Sığortalanması Fondu "Günay Bank" ASC-nin ləğvedicisi təyin edildi




Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 16 may 2023-cü il tarixli qərarı ilə məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasına, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə görə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.6-cı, 16.1.7-ci, 16.1.9-cu və 61.1-ci maddələrinə əsasən "Günay Bank" ASC-nin lisenziyası 17 may 2023-cü il tarixindən etibarən ləğv edilmiş və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunmuşdu.

Bakı Apellyasiya Məhkəməsinin 18 may 2023-cü il tarixli 2-3(103)-42/2023 saylı qərarı ilə "Günay Bank" ASC müflis elan edilmiş və iflas proseduruna başlanmışdır.

Bildiririk ki, Bakı Apellyasiya Məhkəməsinin sözügedən qərarına əsasən Əmanətlərin Sığortalanması Fondu "Günay Bank" ASC-nin ləğvedicisi təyin edilmişdir.

## "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs

*Ağdam rayonunun Xıdırlı kənd yaşayış məntəqəsində 2, 3, 4 və 5 otaqlı fərdi yaşayış evlərinin tikintisi işlərinin satın alınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs- bərpa və yenidənqurma departamenti müdirinin müavini İntizam Novruzov – i.novruzov@qbti.gov.az və baş məsləhətçi Tural Rzayev - t.rzayev@qbti.gov.az, telefon- + 99455 489 98 20.

İşlərin qısa təsviri:

719 ədəd 2, 3 , 4 və 5 otaqlı fərdi yaşayış evlərinin, klub icma mərkəzinin, kitabxananın və s. tikintisi.

Tenderdə iştirak haqqı- 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat- "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs

VÖEN- 3201635961
Bank- "ABB"nin Mərkəz filialı
Kod- 805722
VÖEN- 9900001881
H/h- AZ95İBAZ38030019443196817204
M/h- AZ03NABZ01350100000000002944
SWIFT İBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;
- malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir).
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları;
- baş podratçı kimi son beş il (2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 15 (on beş milyon manat ) milyon manatdan az olmayan, müraciət edənin isə ən azı 7.5 (yeddi milyon beş yüz min manat ) milyon manat olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq: layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 2 (iki) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər təqdim edilməlidir;
- son beş il (2017-ci il yanvarın 1-dən 2021-ci il dekabrın 31-dək) ərzində tikinti-quraşdırma işləri üzrə ən azı 25 (iyirmi beş milyon manat) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər sənədlər.

Qeyd- tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 24 iyul 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 1 avqust 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin inzibati binasında 2 avqust 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*İstehsalat Xidmətləri İdarəsinin yanğından mühafizə balonlarının doldurulması sahəsinə yanğınsöndürmə avadanlıqlarının satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyunun 13-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu-(012) 404-37-00, daxili: 1132.

Ünvan-Bakı, Mikayıl Useynov küçəsi 2.

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 119 (30235) 7 iyun 2023-cü il, çərşənbə

veb-sayt: www.xalqqazeti.az


*İdman xəbərləri*

## Üzgüçülərimiz Çexiyada 10 medal qazanıblar



**Azərbaycan üzgüçüləri Çexiyada Olimpiya Oyunlarına lisenziya xarakterli turnirdə uğurla iştirak ediblər. Avropanın su idman növləri inkişaf etmiş 16 ölkəsindən idmançıların qatıldıqları yarışı millimiz 10 medalla başa vurub.**

Belə ki, yığmamızın üzvlərindən Oqtay Hüseynov 2 qızıl, 2 bürünc, Əbdürrəhman Rüstəmov 1 qızıl, 2 gümüş, Ramil Vəlizadə 1 gümüş, Məryəm Şeyxəlizadəhangah 1 gümüş, Rəşad Alquliyev 1 gümüş medal qazanıblar.

## "Neftçi" futbol klubu cərimələnib

**"Neftçi" futbol klubu 5 min 600 manat məbləğində cərimələnib. AFFA-nın İntizam Komitəsi Bakı təmsilçisini "Qəbələ"yə uduzduğu Azərbaycan kuboku yarışlarının final oyununda baş verənlərə görə cəzalandırıb.**




Belə ki, "Neftçi" görüş başa çatdıqdan sonra azarkeşlərin meydana kənar əşyalar atması səbəbindən 1600, fanatların kütləvi şəkildə təhqiramiz ifadələr işlətməsinə görə isə 4 min manat ödəməli olacaq.

## Paytaxt həndbolçuları qalib olublar



**Həndbol üzrə yeniyetmələr arasında keçirilən Azərbaycan birinciliyində ən güclü komandalar müəyyənləşib. "AHF Arena"da təşkil edilən yarışda 2008-2010-cu il təvəllüdlü oğlanlar və qızlar qüvvələrini sınayıblar.**

Oğlanların yarışında daha yaxşı oyun nümayiş etdirən "Bakı-2" (2 saylı RİOEUGİM) qalib adını qazanıb. "Bakı-1" (6 saylı İOEUGİM) ikinci, Mingəçevir kollektivi üçüncü yeri tutub. Cəlilabad həndbolçuları sonuncu olublar.

Qızların mübarizəsi "Bakı-1"in (6 nömrəli İOEUGİM) qələbəsi ilə nəticələnib. "Bakı-2" (2 saylı RİOEUGİM-1) ikinci, Şirvan komandası üçüncü pillədə qərarlaşıb.

*L.QURBANOVA, "Xalq qəzeti"*

*Texnologiya yenilikləri*



## NASA-nın UNO açıqlaması

**ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar İdarəsi (NASA) uçan naməlum obyektlərin (UNO) mövcudluğu ilə bağlı ictimai toplantı keçirib.**

"Amerikanın səsi" radiosu xəbər verir ki, NASA əməkdaşları toplantı zamanı UNO-ya aid olduğu deyilən videogörüntülər paylaşıblar. ABŞ-a məxsus PUA tərəfindən lentə alınan görüntülərdə metal kürənin sürətlə hərəkət etdiyi aydın görünür.

Beləliklə, NASA UNO-ların varlığını rəsmi olaraq qəbul edib. Məsələ burasındadır ki, NASA rəhbərliyi uzun illər boyu UNO-nun mövcudluğunu qəbul etmirdi.

*"Xalq qəzeti"*

## Çində gerçək "Uçan boşqab"



**Son həftələrdə gündəmdə olan "UFO" məsələsi Çində reallığa çevrilib. Filmlərdə görünən "uçan boşqab"dan bir qədər fərqli olsa da, "UFO" səmada görünüb. Söhbət dairə formasında elektriklə işləyən təyyarədən gedir. Bu təyyarə dizaynı ilə yerli əhalinin diqqətini çəkməyi bacarıb. Xəbəri "logll.com" saytı verib.**

"Uçan boşqab" ilk uçuşunu Çinin Şençjen şəhərindəki Talent Parkında edib. Təyyarənin ən fərqləndirici xüsusiyyəti sərnişinlərinə mərkəzdəki şəffaf sferik pilot kabinəsi ilə ətrafın unikal panoramik mənzərəsini təqdim etmək qabiliyyətidir.

Digər tərəfdən, havada 15 dəqiqə qala bilən "uçaq" (türk qardaşlarımız təyyarəni belə adlandırırlar-müəllif) 200 metrə qədər uçuş hündürlüyü və saatda 50 kilometr sürət təklif edir. Daxilində 12 mühərriki olan təyyarə su səthlərinə enib-qalxa bilir. Hazırda turizm və reklam məqsədləri üçün istifadə olunur. Hələlik kütləvi istehsal kimi hədəfi yoxdur.

*Ə.ƏFSANƏ, "Xalq qəzeti"*

## Qazaxlar Vətənə dönəcəklər

**2023-cü ilin iyul ayından etibarən etnik qazaxlara tarixi vətənlərinə asan yolla qayıtmaları üçün "Ata Joly" ("Əcdadlar yolu") kartının verilməsinə başlanılacaq.**

Bildirilib ki, yeni sənədin təqdim edilməsində məqsəd qazaxların doğma ölkələri ilə əlaqələrinin möhkəmləndirilməsi, milli adət-ənənələrin qorunub saxlanılmasıdır.

Qazaxıstan hökuməti bu yolla uğurlu iş adamlarını da ölkə iqtisadiyyatına cəlb etmək fikrindədir. Kartı əldə edən şəxslər Qazaxıstana daxil olduqdan sonra, əvvəl yaşadıqları ölkələrin vətəndaşlığını itirməmək şərti ilə on il müddətinə yaşayış icazəsi alacaqlar. Həmçinin, kart sahibinə iş və ya biznes üçün də region seçmək hüququ veriləcək.

Qeyd edək ki, kart sahibinin Qazaxıstan vətəndaşından fərqli olaraq, respublikanın dövlət və yerli özünüidarəetmə orqanlarına seçmək və seçilmək, referendumda iştirak etmək hüququ yoxdur.

*Fidan HÜQUQQIZI,
"Xalq qəzeti"*

*Sosial şəbəkələrdən seçmələr*

## "Günümüz gözəl keçsin..."

**"Facebook"da bir ziyalı xanım, demək olar ki, hər səhər tezdən pozitiv ruhlu paylaşımlar edir və bu yolla dostlara, tanışlara, bütün insanlara qəlbindən dilinə ən xoş arzularını dilə gətirir. O, böyük ehtimalla öz müsbət enerjisini başqalarına ötürməklə özü də mənən paklaşır, zənginləşir. Dünənki paylaşımı da diqqətimi cəlb etdi. Orada yazılıb:**



*"Yenə yeni bir həftəyə,*
*yeni bir günə,*
*Sevinclərinə, ümidlərinə,*
*"yaxşı ki, sən varsan!",*
*sözlərini ürəkdən deyənlərə*
*hər şeyə, hər kəsə günaydın!*
*Allahın mərhəməti böyükdür,*
*Hər cür miskin pisliklərdən,*
*Sağalmayan xəstəliklərdən,*
*Yerdən, göydən, insanlardan*
*gələn hər cür fəlakətlərdən*
*Böyük Allah hifz eləsin bizi!*
*Gününüz gözəl keçsin.*

**PS.** Bəlkə də ilhamlı bir şair bu fikirləri daha gözəl və rəvan şəkildə ifadə edərdi. Fikrimizcə, bu sözlər, hisslər də xeyirxah bir ürəkdən gəldiyi üçün çox dəyərlidir. Yaxşı deyiblər ki, hər insan bir az da şairdir.

*Təqdim etdi:
M.HACIXANLI,
"Xalq qəzeti"*

*Maraq dünyamız*

## Çaplin: Aktyor olmasaydım, mütləq boksçu olardım

**Dahi aktyor Çarli Çaplin idman azarkeşi olub. Ən sevimli idman növü isə boks idi. Yeri gəlmişkən, "Böyük şəhərin alovları" filmində baş rolu ifa edən xanım Virciniya Çerrillə boks nümayişində tanış olmuşdular.**



Çarli Çaplin solaxay olub, hansı ki, skripkanı da sol əli ilə çalırdı. Boksda isə sol əli ilə rəqibinə "güclü zərbələr" endirməyə cəhd edirdi. Çaplin deyirmiş ki, aktyor olmasaydım, mütləq boksçu olardım.

Çarli Çaplin 16 aprel 1889-cu il Londonda doğulub, 25 dekabr 1977-ci il İsveçrənin Vevə şəhərində 88 yaşında dünyasını dəyişib. Dünya kinematoqrafıyasında Çaplin qədər uzun onillər boyu dəbdə olan şöhrətli ulduz olmayıb.

Çaplin öz filmlərindən 10,5 milyon dollar qazanıb. Bu, o dövr üçün olduqca böyük vəsait idi.

## Kennedi hər səhər bir neçə qəzet oxuyarmış...

**ABŞ-ın ən sevilən və xarizmatik prezidentlərindən olan Con Kennedi hər səhər azı 4 qəzet oxumağı planlaşdırardı. Qiraətə sərf edilən zaman isə 20 dəqiqədən çox olmamalı idi. O, çox sürətlə mütaliə edirdi. 35-ci Prezident bunu hələ uşaqlıq yaşlarında öyrənmişdi. Onun, həmçinin iti yaddaşı vardı.**



C.Kennedi jurnalist peşəsini çox sevirdi. Bu sahədə nəzərəçarpan uğurlar əldə etmişdi. O, həm də gözəl natiq olub. C.Kennedinin 1963-cü ildə Qərbi Berlində şəhər sakinləri qarşısında parlaq çıxışı dünya natiqlik sənətinin ən gözəl nümunələrindən sayılır.

Xatırladaq ki, C. Kennedi 1963-cü il noyabrın 22-də yerli vaxtla saat 12:30-da Dallasda qətlə yetirilib. İndiyə qədər "əsrin cinayəti" ilə bağlı çoxlu versiyalar və fikirlər gəzib-dolaşır. Amerikalıların 70 faizi C.Kennedinin qətli ilə əlaqədar rəsmi açıqlamalara inanmır.

*"Xalq qəzeti"*

*Sağlamlıq guşəsi*

## Maqnit qasırğasına çarə...

**Harada yaşamağımızdan asılı olmayaraq, hava dəyişən zaman orqanizmdə müəyyən problemlər yaranır. Maqnit qasırğası baş verəndə isə miqren və oynaqlarda ağrı daha da güclənir.**

Mütəxəssislərin fikrincə, həm uşaqlar, həm də böyüklər digər xroniki xəstəliklərinin olmasından asılı olmayaraq, belə havaya reaksiya verirlər. Üstəlik, onlarda, hətta kəskin reaksiya da baş verə bilər.

Tədqiqatçılar bildirirlər ki, maqnit qasırğasının orqanizmə təsirini azaltmaq üçün ən asan yol hava dəyişikliyindən bir gün əvvəl daha az aktiv olmaqdır. Həmin gün orqanizmə dəstək üçün bitki çayları içmək olar.

Maqnit fırtınaları zamanı tünd qara çay və təbii qəhvənin istifadəsini azaltmaq lazımdır. Bunun əvəzinə, bitki dəmləmələri içmək məsləhətdir.

Aşağı qan təzyiqi olan insanlar üçün cökə və gicitkən çayı ən yaxşı içki olacaq. Yüksək təzyiqdən əziyyət çəkənlər üçün ideal içki nanə, çobanyastığı, itburnu çayı və ya zəncəfil içkisidir.

Dərman bitkilərinin qurudulmuş meyvələrini termosda dəmləmək də faydalıdır. Çay nə qədər çox dəmdə qalarsa, içiləndə miqren və əzalardakı ağrılar bir o qədər tez keçər.

Belə havalarda alkoqoldan uzaq durmaq məsləhətdir.

*Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"*

*Proqnoz*

## Güclü külək əsəcək, yağış yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 7-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər yarımadanın bəzi ərazilərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək.Gecə 16-21°, gündüz 23-27° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi rayonlarda arabir güclü olacaq. Havanın temperaturu gecə 15-19°, gündüz 22-27°, dağlarda gecə 5-10°, gündüz 12-17° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) maliyyə və audit kafedrasının müdiri, professor Əvəz Ələkbərov Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5167
SİFARİŞ 1384
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00